KHAZAR REVIEW

№ 364 İyul 2017

# XƏZƏR XƏBƏR




AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org




ZəFəR




140
ZƏKA




Zirvə






BAKI

# İÇİNDƏKİLƏR


**Xəzər Universitetində "Məntiq yarışması" keçirildi** . . . . . . . . . . 4

**Professordan mükəmməl izah: "universitetlərdə kurslar yaradılsa, neqativ hallar..." (*Professor Hamlet İsaxanlı ilə müsahibə*)** . . . . . . . . . . 8

**Universitet xəbərləri** . . . . . . . . . . 9

**Xəzər Universitetində bəstəkar Sevda Rəhimovanın yaradıcılıq gecəsi keçirildi** . . . . . . . . . . 10

**Tələbələrin yaradıcılıq işlərinə baxış** . . . . . . . . . . 14

**"Təbii resursların idarə edilməsi" mövzusunda beynəlxalq təlim** . . . . . . . . . . 18

**Elmi şuranın cari dərs ilində son iclası keçirildi** . . . . . . . . . . 22

**Xəzər Universitetində ERASMUS+ Nizami layihəsinə dair seminar** . . . . . . . . . . 24

**Potensial məktəb direktorlarının növbəti kursu başa çatdı** . . . . . . . . . . 28

**Yaponiya haqqında açıq dərs** . . . . . . . . . . 33

**Xəzər Universitetində "Açıq qapı" günləri** . . . . . . . . . . 36

**"Molla Pənah Vaqif və folklor"** . . . . . . . . . . 38

***Л. М. Гамидова.* Хазар в лицах** . . . . . . . . . . 40

**İntellektual oyunun final mərhələsi Xəzər Universitetində keçirildi** . . . . . . . . . . 44

**Interwiew With Raziya Isayeva Khazar University, Azerbaijan** . . . . . . . . . . 46

***Ali Gürbüz.* "Can" Azerbaycan!** . . . . . . . . . . 50

**NDU xəbərləri** . . . . . . . . . . 52

**Xəzər Universiteti Multimedia mərkəzi təqdim edir** . . . . . . . . . . 64

***Taseki İnoue.* Əlçatmaz arzu (*hekayə*)** . . . . . . . . . . 66



1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində materialın redaktoru:
Eynur Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eynur Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre





# XƏZƏR UNİVERSİTETİNDƏ "MƏNTİQ YARIŞMASI" KEÇİRİLDİ

İyunun 1-də Xəzər Universitetinin "Universitet - məktəb əməkdaşlığı" layihəsi çərçivəsində Bakının Suraxanı rayonundakı 232 saylı məktəbin təşəbbüsü ilə rayonun orta məktəblərinin 6-7-ci sinif şagirdləri arasında universitetin Mərmər zalında "Məntiq yarışması"nın hər biri 15 dəqiqə olmaqla, 3 turdan ibarət final mərhələsi keçirildi. Yarışmada 232 saylı məktəbin şagirdləri ilə bərabər 140, 85, 226, 284, 149 və 193 saylı məktəblərin şagirdləri də iştirak edirdilər. Finalda hər birində 6 nəfər olmaqla, 7 məktəbin komandası yarışdı. Komandalara aid olduqları məktəblərin şagirdləri yarış boyu azarkeşlik edirdilər.

Xəzər Universitetinin əməkdaşlarından və Bakı Şəhəri üzrə Baş Təhsil İdarəsinin nümayəndəsindən ibarət 6 nəfərlik münsiflər heyəti cavabları qiymətləndirdi. Yekunda 149 saylı məktəbin komandası 1-ci yeri, 232 saylı məktəbin komandası 2-ci yeri, 85 saylı məktəbin komandası isə 3-cü yeri tutdu.





# "LOGIC COMPETITION" WAS HELD AT KHAZAR UNIVERSITY

On June 1, the final round of the staged 'Logic Competition' among Surakahani district 6-7 grade secondary schoolchildren was held by the initiative of Khazar University and school No. 232 within the "University - School cooperation" framework. Each lasting 15 minutes, the competition consisted of three stages. Along with students of School No. 232, teachers and students from Schools No. 140, 85, 226, 149 and 193 also took part in the aforementioned competition. Altogether, 7 teams and 6 team members in each team participated in the final stage. Throughout the competition, students from the schools were supporting their teams.

Results were evaluated by the jury consisting of six executives of Khazar University and Baku Department of Education. As a result, School No. 149 took the premier place. Accordingly, School No. 232 was ranked for the second and School No 85 was qualified for the third place.








Tədbirin sonunda bütün yarış iştirakçılarına sertifikat, ilk üç yeri tutan komandalara isə diplom və medallar təqdim olundu. 1-ci yeri tutan məktəbin komandası kubokla da təltif edildi. Bundan əlavə, Xəzər Universiteti və Bakı Şəhəri üzrə Baş Təhsil İdarəsi tərəfindən yarışda iştirak edən şagirdlərə hədiyyələr paylandı.

Tədbiri yekun sözü ilə bitirən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı 232 saylı məktəbin direktoru Məhluqə Əzizovaya universitet-məktəb əməkdaşlığında göstərdiyi təşəbbüsünə görə təşəkkürnamə təqdim etdi (foto jurnalın üz qabığında).

Yarış ərzində - fasilələrdə Xəzər Universitetinin tələbə və müəllimlərdən ibarət musiqi və rəqs kollektivləri çıxış etmişlər.

AZƏRTAC(http://azertag.az/xeber/Mektebliler_arasinda_kechirilen_mentiq_yarismasinin_qalibleri_mukafatlandirilib-1068598) və digər informasiya agentlikləri tədbir haqqında xəbər yaymışlar.







At the end of the competition, all teams were awarded with certificates. In addition to this, the teams which won the first three places were awarded with diplomas and medals. The 1st place team was awarded with a Cup. Moreover, the students who took part in the competition were given gifts by the Baku Department of Education and Khazar University.

The event ended with a final word of Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. He expressed his gratitude to Mahluga Azizova, the Director of School No. 232 for her initiative in "University - School cooperation".

During the breaks, a group of students and teachers of the university performed music and dance numbers.

AZERTAC(http://azertag.az/xeber/Mektebliler_arasinda_kechirilen_mentiq_yarismasinin_qalibleri_mukafatlandirilib-1068598) and other information agencies released the news about the events.





# PROFESSORDAN MÜKƏMMƏL İZAH: "UNİVERSİTETLƏRDƏ KURSLAR YARADILSA, NEQATİV HALLAR..."

*İyunun 8-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni oxucularımıza təqdim edirik.*

"Bu gün Azərbaycan universitetlərində hazırlıq kursları mövcud deyil"- bunu *Sherg.az*-a ali məktəblərdə hazırlıq kurslarının yaradılması məsələsindən danışarkən Xəzər Universitetinin təsiscisi, professor Hamlet İsaxanlı deyib.

O bildirib ki, hələlik universitetlərə qəbul mərkəzi imtahanla aparılır:

"Təhsil Nazirliyinin qəbul siyasətini liberallaşdırmaq cəhdi bəyənilləndir. Düzdür, Dövlət İmtahan Mərkəzi öz rolunu oynayır. Korrupsiyaya qarşı mübarizə, obyektivliyin təmin olunması baxımından DİM-in müsbət rolu şübhəsizdir. Eyni zamanda, bu, həddindən artıq, ultramərkəzləşdirilmiş sistemdir ki, ali məktəblər özləri heç nə edə bilmirlər. Məsələn, rəhbərliyimdə olan təhsil ocağına gələn tələbələrin DİM-dən kağız gətirməsi mənim üçün kifayət etmir. Həmin tələbələrin şəxsiyyəti, maraqları mühüm rol oynayır. Eyni test nəticəsi göstərən iki tələbə bir-birindən çox fərqli ola bilər. Ona görə, tələbə qəbulu prosesində universitetlərin rolunu artırmaq lazımdır. Digər tərəfdən, müxtəlif baxış olacaq ki, istər-istəməz rüşvət, tapşırıq cəhdləri də ola bilər. Ali məktəblər özləri fərqli olduğuna görə, onların yanaşması da fərqli ola bilər. Universitetlərin daxilində hazırlıq kursları yaradılsa, ümumilikdə neqativ halların qarşısını tam almaq mümkün deyil. Kimlərin necə hərəkət etməsi görünəcək.

Ali məktəblərə müəyyən imkanlar yaratmaq lazımdır ki, onlar öz tələbə seçimi siyasətlərini həyata keçirsinlər. Amma ictimai rəy, Təhsil Nazirliyi, dövlət strukturları görsünlər ki, kimlər necə hərəkət edir. Bütün Avropa və Amerikada mərkəzi imtahan sistemi yoxdur. Lakin onların maraqları, mədəniyyətləri, reytinqlərdə yüksək yer tutma səyləri və s. onları məcbur edir ki, obyektiv işləsinlər, ən yaxşı tələbələri, eyni zamanda ən yaxşı professorları cəlb etsinlər. Səviyyənin yüksək olmasına çalışırlar. Hər şeyi mərkəzdən idarə etmək olmur. Ali məktəblərin özünə əsas rol vermək lazımdır".

H.İsaxanlı əlavə edib ki, hazırlıq kurslarının necə yaradılması, texniki məsələlərin dəqiqləşdirilməsi Təhsil Nazirliyinin səlahiyyətində olacaq:

"Bəzi məsələlər müzakirə olunmalı, hansı risklərin nəzərdə tutulduğu ölçülməlidir. Buna ümumi şəkildə qəbul siyasətinin liberallaşması deyilir.

Amma hər kəsə məlumdur ki, ali təhsilli insanların sayına görə Azərbaycan digər ölkələrdən geri qalır. Düzdür, biz keyfiyyətli ali təhsilə üstünlük veririk, amma bütün başqa ölkələrdə ali təhsil ölkəmizdəkinə nisbətən daha əlçatandır. Qəbul siyasətini yumşaltmaq lazımdır. Əgər insanlar oxumaq istəyirsə, onların bir hissəsi yüksək qiymətlər alıb, dövlət tərəfindən oxudulmalıdır. Digərləri isə oxumaq istəyirsə, ali məktəb onu götürmək istəyirsə, qoy oxusunlar.

Məsələn, mən Xəzər Universitetinə tələbələri götürdükdə çalışacağam ən yaxşı, istedadlı tələbələri götürüm. Kasıbdır, oxuya bilmirsə, elə hazırlamaq lazımdır ki, o, dövlətdən pulunu alıb, gələ bilsin".

**Ayyət Əhməd**

*http://www.sherg.az/site/id32412/_Professordan_mükəmməl_İZAH:_"Universitetlərdə_kurslar_yaradılsa,_neqativ_hallar..._"*

## PROFESSOR HAMLET İSAXANLININ İLK NƏSR ƏSƏRİ ÇAP OLUNUB

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının elmi və poetik yaradıcılığı ilə yanaşı, onun nəşr edilməmiş hekayə və romanları olduğu da məlumdur (bəzi müsahibələrində buna toxunulub).

"Xəzər Xəbər" jurnalının 2017-ci il may nömrəsində (nömrə 362) professorun ilk nəsr əsəri -"Musiqili... şöhrət azarı" adlı hekayəsi dərc olunub. Hekayəni jurnalın elektron versiyasında da oxumaq olar: *http://khazar-review.khazar.org/*

## PROFESSOR HAMLET ISAKHANLI'S FIRST PROSE WORK IS PUBLISHED

It is well known that along with the scientific and poetic creativity Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees has also unpublished stories and novels (it has been mentioned in some of his interviews).

The first prose work of the professor – "Musical ... fame obsession" was published in May, 2017 issue (362) of Khazar Review journal.

The story can also be read in the electronic version of the journal: *http://khazar-review.khazar.org/*




## XƏZƏR UNİVERSİTETİNDƏ APARILMIŞ TƏDQİQAT "ƏN YAXŞI TƏDQİQAT İŞİ" SEÇİLDİ



Xəzər Universiteti Ətraf Mühitin Tədqiqi Mərkəzində universitetin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun apardığı tədqiqat Koreyanın Seul şəhərində yerləşən İstixana qazlarının inventarlaşdırılması və azaldılması üzrə işçi qrupu tətəfindən ən yaxşı tədqiqat kimi seçilmişdir.

Tədqiqat Bakı şəhərində və ətraf ərazilərdə ictimai nəqliyyatın yaxşılaşdırılması yolu ilə istixana qazlarının azaldılması mövzusundadır.

## THE RESEARCH CONDUCTED AT KHAZAR UNIVERSITY WAS SELECTED AS 'THE BEST RESEARCH WORK'

The research conducted at the Environmental Research Centre of Khazar University by Dr. Rovshan Abbasov, Head of the Department of Geography and the Environment, was selected as the best research work by Working Group on Inventory and Mitigation on Greenhouse Gases located in Seoul, South Korea.

The research topic is Assessment of Mitigation Potential through Improving Public Transport in Greater Baku Area, Azerbaijan.



# XƏZƏR UNİVERSİTETİNDƏ BƏSTƏKAR SEVDA RƏHİMOVANIN YARADICILIQ GEÇƏSİ KEÇİRİLDİ

İyunun 8-də Xəzər Universitetinin Mərkəz kampusundakı "Dünya" konsert salonunda "Dünya" məktəbinin müəllimi, bəstəkar Sevda Rəhimovanın yaradıcılıq gecəsi keçirildi. Tədbirdə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, bəstəkarlar və tamaşaçılar iştirak edirdilər.

Tədbir Sevda Rəhimovanın da mənsub olduğu Qara Qarayev sənət məktəbi haqqında filmlə başladı. Film "Dünya" məktəbinin Multimedia mərkəzi tərəfindən hazırlanmışdı. Filmə baxışdan sonra Xəzər Universitetinin Kamera orkestri (bədii rəhbər və pianoçu - universitetin Musiqi və incəsənət departamentinin müdiri, dosent Zülfiyyə Sadıqova) və Simli kvartetin (Əməkdar artist Əyyub Əliyev, Elina İsmət, Anar Əliyev, Samir Əsədov) iştirakı ilə konsert proqramı başlandı.

Beynəlxalq müsabiqələr laureatı Gülşən İbadova (soprano) bəstəkarın pianoda müşayiəti ilə onun "Sənin üçün" (sözləri: Nəbi Xəzri), "Küləklər" (Xəzər Süleymanlı), "Dağ çiçəkləri" (Bəxtiyar Vahabzadə), "Susma, danış" (Xəzər Suleymanlı) romanslarını, Nigar Suleymanova (fortepiano) "Fortepiano üçün 3 prelüd", Nərgiz Əliyeva (fleyta) "Fleyta və kamera orkestri üçün pyes" əsərlərini, Nərmin İsgəndərova (fortepiano) "Fortepiano üçün sonata"nın 2-ci və 3-cü hissələrini ifa etdilər.







Kamera orkestri tərəfindən bəstəkarın kamera orkestri üçün pyesləri - "Həzin dalğalar " və"Ckerso" ifa olundu.

Konsert proqramının yekununda Sevda Rəhimovanın Hamlet İsaxanlının sözlərinə bəstələdiyi "İkimizdən birimiz" romansını əməkdar artist İlham Nəzərov və Gülşən İbadova ifa etdilər. Sonda SSRİ xalq artisti, akademik Arif Məlkov, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, Sevda Rəhimovanın yaradıcılığından danışdılar, ona uğurlar arzuladılar.



İyunun 16-da "Müsavat" qəzetinin internet səhifəsində tədbir haqqında geniş xəbər yayımlanmışdır. Xəbəri bu linkdə oxumaq olar:

***http://musavat.com/news/bestekar-sevda-rehimovanin-yaradiciliq-gecesi-kecirilib-fotolar-video_446498.html#Kalibri***





# THE EVENING WITH THE COMPOSER SEVDA RAHIMOVA WAS CONDUCTED AT KHAZAR UNIVERSITY

On June 8, the evening dedicated to the composer and instructor of 'Dunya' School, Sevda Rahimova, was conducted at the "Dunya" concert hall, Khazar University. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, the composer Arif Malikov, well-known figures of culture and art, intellectuals participated in the event.

The event started with the film about "Gara Garayev Art School" which Sevda Rahimova belongs to as well. The film was made by the Multimedia Centre of "Dunya" School. After watching the film, the concert program was launched with the participation of Khazar University Chamber Orchestra ( Zulfiyya Sadigova, Associate Professor, Art director and pianist- Head of the Department of Music and Fine Arts) and String Quartet ( Ayyub Aliyev, Honoured Artist; Elina Ismat, Anar Aliyev, Samir Asadov)

Gulshan Ibadova (soprano), the Laureate of International competitions, sang the romances - 'For you" (Nabi Khazri), "Winds" (Khazar Suleymanli), "Mountain flowers" (Bakhtiyar Vahabzada), "Do not be silent" (Khazar Suleymanli) - accompanied by the composer, Nigar Suleymanova (fortepiano) performed "Three preludes for the piano", Nargiz Aliyeva (flute) performed the "Play for flute and chamber orchestra", and Narmin Isgandarova (piano) played the 2nd and 3rd parts of the "Sonnet for the piano". The composer's plays – "Gentle waves" and "Ckerso" - for chamber orchestra were performed by the Chamber orchestra.

At the end of the concert, Ilham Nazarov and Gulshan Ibadova performed Sevda Rahimova's romance "One of us" which was composed for the lyrics written by Hamlet Isakhanli. Academician Arif Malikov, National Artist of the USSR and Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees talked about Sevda Rahimova's creative work and wished her success.

On June 16, the detailed information related to the event was released on the Internet page of 'Musavat' newspaper.

The news can be read in full via this link:

*http://musavat.com/news/bestekar-sevda-rehimovanin-yaradiciliq-gecesi-kecirilib-fotolar-video_446498.html#Kalibri*

TEDxKhazarUniversity

## TEDxKHAZARUNIVERSITY TƏDBİRİNİN VIDEOÇARXLARI *YOUTUBE*-DA

Mayın 13-də Xəzər Universitetində ilk dəfə keçirilən TEDxKhazarUniversity tədbirinin videoçarxları artıq TED-in rəsmi *Youtube* kanalındadır. Bu tədbir 9 mütəxəssis-məruzəçinin çıxışından və Xəzər Universiteti tələbə və müəllimlərinin ifa etdikləri musiqi nömrələrindən ibarət olmuşdur. TEDx danışıqlarının ənənəsinə uyğun olaraq, məruzələr qısa, təsirli, ictimai hadisələrlə əlaqəli, ruh verən olmuş və yüzlərlə insanın "bəyən"isini toplamışdır.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da məruzəçilər arasında idi və o, bir universitet xəyalının gerçəkliyə qovuşma hekayəsindən danışmışdır. Təhsil kimi siyasi yönü olan bir məsələnin 1991-ci ildə xəyalını qurmaq və onu gerçəkliyə qovuşdurmaq həqiqətən əzm, iradə, uzaqgörənlik və çalışqanlıq tələb edir. H. İsaxanlının məruzəsi, digər 8 məruzə və musiqi nömrələri *www.youtube.com* saytında tedxkhazaruniversity adı ilə milyonların nəzərinə təqdim olunmuşdur.

## TEDxKHAZARUNIVERSITY EVENT'S VIDEOS ARE ON *YOUTUBE* NOW

Videos from TEDxKhazarUniversity event, which was held at Khazar University for the first time on 13 May, are on the official *Youtube* channel of TED. The event contained nine specialist speakers' talks and musical performances by the students and teachers of Khazar University. In accordance with the nature of TEDx, the talks were precise, effective, related to social events, encouraging and were highly approved by hundreds of people.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees was also among the lecturers and talked about his dream of founding a university which came true. Dreaming of an issue like education in 1991 which had also a political side and its realization, indeed, required determination, farsightedness and hard work. Professor Hamlet Isakhanli's speech, as well as other eight talks and musical performances have been presented to audiences on *www.youtube.com* entitled tedxkhazaruniversity.

YouTube

## XƏZƏR UNİVERSİTETİNİN PROFESSORU "İQTİSADİ FORUM" VERİLİŞİNİN QONAĞI OLDU

İyunun 14-də "İqtisadi forum" verilişinin qonaqları Xəzər Universitetinin professoru Fuat Rəsulov və Risk Menecment Assosiasiyası ekspertlər qrupunun rəhbəri, özəl banklardan birinin risk departamentinin direktoru Elman Sadıqov olmuşlar. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Sabit Bağırovun müəllifi olduğu proqramın budəfəki buraxılışı "Sahibkarlar üçün maliyyə əlçatanlığı" mövzusuna həsr olunmuşdu.

Verilişi bu link vasitəsilə izləmək olar:

*https://www.youtube.com/watch?v=_bexTogOz8o&feature=youtu.be*

## PROFESSOR OF KHAZAR UNIVERSITY WAS ON THE "ECONOMIC FORUM" PROGRAMME

On 14 June, the guests of the programme "Economic Forum" were Fuat Rasulov, Professor of Khazar University and Elman Sadigov, the head of Risk Management Association Experts Group, the director of Risk Department of one of the private banks. The current broadcast of the programme, authored by Sabit Bagirov, the head of Economic and Political Research Centre, was dedicated to the topic "Financial Access to Entrepreneurs."

The programme can be watched via the link below:

*https://www.youtube.com/watch?v=_bexTogOz8o&feature=youtu.be*



# TƏLƏBƏLƏRİN YARADICILIQ İŞLƏRİNƏ BAXIŞ

İyunun 20-də Xəzər Universitetinin Mərmər salonunda dizayn ixtisası və xor fənni üzrə təhsil alan tələbələrin yaradıçılığına baxış keçirildi. Tədbirdə universitetin rəhbərliyi, dekanlar, departament müdirləri və əməkdaşlar iştirak edirdilər.

Qeyd edək ki, dizayn ixtisası universitetdə cari dərs ilindən başlayaraq, ilk dəfə tədris olunur (müəllimlər Afaq Kərimova və Anar Əsədov). Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqova, departamentin müəllimi Afaq Kərimova çıxış edərək, tələbələrin xor və dizayn yaradıcılığı haqqında məlumat verdilər. İştirakçılar tələbələrin Mərmər salonda nümayiş etdirilən işlərinə baxmağa dəvət olundular. Tələbələr öz işləri haqqında məlumat verib, sualları cavablandırdılar.

Sonra Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarovanın dirijorluğu ilə tələbələrdən ibarət xor kollektivi pianoda Zülfiyyə Sadıqovanın müşayiəti ilə hazırladıqları konsert proqramını təqdim etdilər.

Tələbələrin yaradıcılıq işləri iştirakçılar tərəfindən maraqla qarşılandı. Xəzər Universitetinin rektoru Hassan Niknafs çıxış edərək, onlara uğurlar arzuladı.






# THE STUDENTS' CREATIVE WORKS WERE VIEWED



On June 20, the creative works of the students who major in Design and study Choir subject were viewed at the Marble Hall of Khazar University. The event was attended by the university administration, deans, department directors and the staff.

It should be noted that the specialty of Design has been taught at the university for the first time since the current academic year. (Instructors Afag Karimova and Anar Asadov). Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts, the pianist; Afag Karimova, the instructor of the department spoke about the students' creativity related to Design and Choir. The participants were invited to have a look at the works exhibited in the Marble Hall. The students gave the information and answered the questions regarding their works.

Then the concert program was presented by a choral collective of the students conducted by Mahsati Jabbarova, the instructor at Khazar Universty and accompanied on the piano by Zulfiyya Sadigova.

The creative works made a very good impression on the participants. Dr. Hassan Niknafs, the rector of the university, delivered a speech and wished them success.



## PROFESSOR HAMLET İSAXANLI MƏŞHUR VOKALÇILARA HƏSR OLUNMUŞ TƏDBİRDƏ ÇIXIŞ ETDİ

İyunun 17-də Heydər Əliyev adına Sarayda görkəmli Azərbaycan müğənniləri, vokal sənətinin tanınmış nümayəndələri Fidan və Xuraman Qasımovalara həsr olunmuş təntənəli mərasimdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış etdi. O, Azərbaycan vokal sənətinin tarixi və bu tarixdə Qasımova bacılarının yeri haqqında danışdı.

Bu haqda daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

*http://kaspiy.az/news.php?id=62645*

## PROFESSOR HAMLET ISAKHANLI MADE A SPEECH IN THE EVENT DEDICATED TO THE VOCALISTS

On 17 June, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees made a speech in a solemn ceremony held at Heydar Aliyev Palace dedicated to the prominent singers of Azerbaijan, including well-known members of vocal art, Fidan and Khuraman Gasimova.

He spoke about the history of the vocal art in Azerbaijan and the role of Gasimova sisters in it.

More detailed information can be obtained via this link:

*http://kaspiy.az/news.php?id=62645*

## *KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES* JURNALININ İŞÇİ HEYƏTİ BDU-DA

İyunun 22-də Xəzər Universitetinin nəşri olan *Khazar Journal of Humanities and Social Sciences* ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") jurnalının işçi heyətini BDU-da "Tətbiqi və Hesablama Riyaziyyat" jurnalının baş redaktoru akademik Fikrət Əliyev qəbul etdi. İşçi heyət Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, *Khazar Journal of Humanities and Social Sciences* jurnalının baş redaktoru professor Hamlet İsaxanlı, redaktor assistentləri Xəyalə Məmmədova və Sevda Salayeva, universitetin Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova ilə təmsil olunurdu.

Görüşdə jurnallar arasında qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə edildi.

## THE STAFF OF *KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES* IN BAKU STATE UNIVERSITY

On 22 June, Academician Fikrat Aliyev, the editor-in-chief of the journal "Applied and Computational Mathematics" received the staff of Khazar Journal of Humanities and Social Sciences, the publication of Khazar University, at Baku State University. The staff was represented by Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, the editor-in-chief of Khazar Journal of Humanities and Social Sciences; Khayala Mammadova and Sevda Salayeva, editor assistants; Lyudmila Sotova, Head of Quality Assurance Centre.

The mutual cooperation between the journals was discussed at the meeting.

## PROFESSOR HAMLET İSAXANLI "KASPİY" QƏZETİNİN SORĞUSUNU CAVABLANDIRIB

2017-ci il iyulun 4-də "Kaspiy" qəzetinin internet səhifəsində Yelena Malaxovanın "Təhsil almaq üçün hara getməli" adlı məqaləsi dərc olunmuşdur. Məqalədə digər təhsil ekspertləri ilə yanaşı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının da mövzu ilə əlaqədar fikirləri verilmişdir.

Materialı tam şəkildə bu link vasitəsilə oxumaq olar: *http://kaspiy.az/news.php?id=63527*

## PROFESSOR HAMLET ISAKHANLI REPLIED TO THE QUESTION OF THE "KASPİY" NEWSPAPER

On July 4, 2017, Elena Malakhova's article "Where to go for education" was published on the website of "Kaspiy" newspaper. Professor Hamlet Isakhanli, the founder of Khazar University and chairman of its Board of Directors and Trustees, also commented on the topic in the article, along with other education experts.

The full material can be read via this link:
*http://kaspiy.az/news.php?id=63527*

## KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES JURNALININ NÖVBƏTİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universitetinin nəşri olan *Khazar Journal of Humanities and Social Sciences* ("Xəzər humanitar və sosial elmlər jurnalı") jurnalının növbəti nömrəsi (№2, 2017, cild 20) çapdan çıxmışdır. Jurnalı bu vebsaytda da oxumaq olar: *www.jhss-khazar.org*

## KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES NEW ISSUE İS PUBLISHED

A new issue of the Khazar Journal Humanities and Social Sciences (Volume 20, number 2, 2017) was published by Khazar University Press. The journal is available electronically at this link: *www.jhss-khazar.org*







## "XƏZƏR"İN ƏMƏKDAŞININ TƏRTİB ETDİYİ KİTAB ÇAP OLUNUB

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, BMT-nin Uşaq Fondu (UNİCEF) və Avropa Komissiyasının Humantar Yardım və Mülki Müdafiə Departamenti tərəfindən müəllim hazırlığı üçün nəzərdə tutulan "Fəlakət riskinin azaldılması təhsil sistemində" adlı dərs vəsaiti çap olunmuşdur. Kitabın çapı Avropa Komissiyasının Humanitar Yardım İdarəsinin (DIPECHO) maliyyə dəstəyi ilə Azərbaycanda həyata keçirilən "Həssas icmalarda və təhsil müəssisələrində fəlakət riskinin azaldılması" layihəsi çərçivəsində baş tutmuşdur.

On beş min tirajla çap edilmiş kitabın tərtibçisi Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri, universitetin Ətraf Mühitin Tədqiqi Mərkəzinin direktoru Rövşən Abbasovdur. Kitabdan ölkənin bütün ali məktəblərində tədris vasitəsi kimi istifadə olunacaq.

## THE TEXTBOOK, PREPARED BY THE HEAD OF DEPARTMENT AT KHAZAR UNIVERSITY, IS PUBLISHED

The textbook entitled 'Disaster Risk Reduction in Education System', considered for teacher training by the Ministry of Education of the Republic of Azerbaijan, the Ministry of Emergency Situations of the Republic of Azerbaijan, the UN Children's Fund (UNICEF) and the Department of European Civil Protection and Humanitarian Aid has been published. The publication of the book was carried out with the financial support of Disaster Preparedness European Community Humanitarian Office (DIPECHO), within the frame of the Project 'Disaster Risk Reduction in Sensitive Communities and Education Institutions' conducted in Azerbaijan.

The author of the book, published in 15000 copies, is Dr. Rovshan Abbasov, Head of the Department of Geography and the Environment, Head of the Center for Environmental Studies at Khazar University. The book will be used as a teaching tool in all the higher education institutions of the country.





## "TƏBİİ RESURSLARIN İDARƏ EDİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ TƏLİM

İyunun 29-dan iyulun 7-dək Xəzər Universiteti nəzdində fəaliyyət göstərən Avrasiya Bilik Mərkəzi (ABM), Xəzər Universiteti və ABŞ-ın Nyu - York şəhərində yerləşən Təbii Resursların İdarə Edilməsi İnstitutunun (TRİEİ) təşkilatçılığı İsveçrə hökumətinin İnkişaf Agentliyinin dəstəyi ilə "Təbii resursların idarə edilməsi" mövzusunda beynəlxalq təlim keçirildi. Xəzər Universitetində keçirilən təlimdə Azərbaycan, Ukrayna, Qırğızıstan, Qazaxıstan, Tacikistan və Monqolustandan mütəxəssislər iştirak edirdilər.

Beynəlxalq təlimin ilk günü açılış mərasimi ilə başladı. ABM-in direktoru, professor İnqilab Əhmədov çıxış edərək, iştirakçıları salamladı və budəfəki təlimin nəzəri və təcrübi əhəmiyyətindən danışdı. Həmin gün iştirakçılara kursun ümumi icmalı barədə məlumat verildi, panellərdə "Təbii xammallara qiymətin ardıcıl olaraq yüksəlməsi prosesinin başa çatması: təsir və adaptasiya" mövzusu müzakirə olundu və sual-cavab sessiyası keçirildi, qruplarda təqdimatlar oldu.

Təlimin sonrakı günlərində "Kəşfiyyat, hasilat və lisenziyaların verilməsində şəffaflıq", "Ekoloji və sosial məsrəflər", "Vergiqoyma icmalı", "Fiksal modelləşdirmə", "Suveren fondlar", "Gəlirlərin bölüşdürülməsi", "Dövlət məsrəfi", "Özəl sektorun inkişafı", "Antiböhran strategiyası" və digər mövzular nəzəri və praktik cəhətdən öyrənildi.

## INTERNATIONAL TRAINING ON "NATURAL RESOURCE GOVERNANCE"

On June 29 - July 7, International Training on Natural Resource Governance was held at Khazar University, organized by the Eurasia Knowledge Centre, Khazar University, Natural Resource Governance Institute (NRGI), New York, the USA and supported by the Swiss Government Development Agency. The experts from Azerbaijan, Ukraine, Kyrgyzstan, Kazakhstan, Tajikistan and Mongolia took part in the training held at Khazar University.

The first day of the international training began with the opening ceremony. Professor Ingilab Ahmadov, Director of Eurasia Knowledge Centre welcomed the participants and spoke about the theoretical and practical importance of the training. On the same day, the participants were informed about the general overview of the course, the panel discussions on the "The end of gradual increase in price for natural raw materials: impact and adaptation" were conducted, question and answer sessions were held and presentations were made in groups.

In the following days, the topics on "Transparency in Exploration, Production and Licensing ", "Environmental and Social Costs", "Taxation Review", "Fiscal Modelling", "Sovereign Funds", "Revenue Sharing", "Public Expenditure", "Private Sector Development" , "Anti-crisis strategy" and some other issues were learned in terms of theory and practice.







Kursda təlimçi kimi ABM-in direktoru İnqilab Əhmədov, təlimçiləri Azər Mehdiyev, Fuat Rəsulov, tədqiqatlar üzrə məsul əməkdaşı Fərid Quliyev, TRİEİ-nin Avrasiya üzrə regional direktoru Qalib Əfəndiyev, TRİEİ-nin Monqolustan üzrə səlahiyyətli nümayəndəsi Dorjdari Namxaycansan iştirak edirdilər.

İyulun 3-də universitetin Mərmər zalında təlim çərçivəsində "Təbii Resursların İdarə Edilməsi İndeksi-2017"-nin təqdimatı keçirildi. Təqdimatda təlimin dinləyiciləri, Azərbaycan Respublikası Dövlət Neft Fondu, İsveçrə və Norveç səfirliklərinin nümayəndələri, qeyri - hökumət təşkilatlarının rəhbərləri və əməkdaşları iştirak edirdilər.

Tədbirdə TRİEİ-nin 81 neft, qaz, mədən sənayesi ölkələrinin, o cümlədən, Azərbaycanın vəziyyəti haqqında hazırladığı təbii resursların indeksi elan edildi.

TRİEİ-nin Avrasiya üzrə regional direktoru Qalib Əfəndiyev çıxış edərək, indeksin hesablama metodologiyasını ətraflı izah etdi və sualları cavablandırdı. Azərbaycandakı Norveç səfirinin birinci müavini Vegard G. Stensrud, İsveçrə səfirinin birinci müavini Simone Haeberli, TRİEİ-nin Monqolustan üzrə səlahiyyətli nümayəndəsi Dorjdari Namxaycansan və ABM-in direktoru İnqilab Əhmədov öz ölkələrindəki vəziyyət haqqında təqdimatla çıxış etdilər. Mövzu ətrafında müzakirələr aparıldı.

Professor Ingilab Ahmadov, Director of Eurasia Knowledge Centre; trainers Azer Mehdiyev, Fuat Rasulov; Farid Guliyev, Research Officer; Galib Afandiyev, NRGI Regional Coordinator for Central Asia and Caucasus; Dorjdari Namhayjansan, the official NRGI representative on Mongolia participated in the training.

The Presentation of the "Natural Resource Governance Index - 2017" was held on July 3, 2017, in the Marble Hall of Khazar University. The Presentation was attended by its participants, the State Oil Fund of the Republic of Azerbaijan, representatives of embassies of Switzerland and Norway, heads and collaborators of non-governmental organizations.

At the event, the index of natural resources of 81 oil, gas and mining industries, including Azerbaijan was announced by Natural Resource Govenance Institute.

Galib Afandiyev, NRGI Regional Director for Eurasia, gave a detailed explanation of the index calculation methodology and answered the questions. Vegard G. Stensrud, First Deputy Ambassador of Norway in Azerbaijan; Simone Haeberli, First Deputy Foreign Minister of Switzerland; Dorjdari Namkhayjansan, Plenipotentiary Representative of NRGI in Mongolia and Ingilab Ahmadov, Director of Eurasia Knowledge Centre at Khazar University made presentations on the conditions in their countries and discussions were conducted around the topic.









İyulun 6–da Mərmər zalda təlimin bağlanış mərasimi keçirildi. Mərasimi açan ABM-in direktoru professor İnqilab Əhmədov çıxış edərək, yeddi gün ərzində davam edən təlimin ilkin nəticələrindən və iştirakçı mütəxəssislər üçün faydasından danışdı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder və TRİEİ-nin Avrasiya üzrə regional direktoru Qalib Əfəndiyev çıxış edərək, təlimi təbii resursların idarə edilməsi sahəsində yeni nəzəri və təcrübi biliklər aşılaması etibarilə yüksək qiymətləndirdilər.

İştirakçı mütəxəssislərə sertifikat təqdim olundu. Sertifikatları professor Hamlet İsaxanlı və səfir Filip Ştalder təqdim etdilər.

İştirakçılar adından Lesia Xomiak (Ukrayna) və digərləri çıxış edərək, təlimin yüksək səviyyədə təşkilinə görə təşkilatçılara təşəkkürlərini bildirdilər.

Bağlanış mərasimində Xəzər Universitetinin Kamera orkesti Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış etdi.

On June 6, a closing ceremony of the training was held in the Marble Hall of Khazar University. Professor Ingilab Ahmadov opened the ceremony and spoke about the initial results of the seven-day training and its benefits to the participants.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Philipp Stalder, the Ambassador Extraordinary and Plenipotentiary of the Swiss Confederation to Azerbaijan and Galib Afandiyev, NRGI Regional Director for Eurasia spoke and highly appreciated the training in terms of the introduction of new theoretical and practical knowledge in the field of natural resource governance.

The certificates were presented to the experts, who participated in the training, by Professor Hamlet Isakhanli and Ambassador Philipp Stalder.

Lesia Khomiak (Ukraine) and others spoke and expressed their gratitude to the organisers for organizing the training at a high level.

During the closing ceremony, the Chamber Orchestra of Khazar University gave a concert program which included the works by Azerbaijani and world composers.





## İSVEÇRƏ SƏFİRİ FİLİP ŞTALDER XƏZƏR UNİVERSİTETİNDƏ

İyulun 6-da İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder Xəzər Universitetində olub, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Görüşdə ölkələrarası təhsil məsələlərinin bir sıra məqamları müzakirə olundu.

## SWISS AMBASSADOR PHILIPP STALDER IS AT KHAZAR UNIVERSITY

On July 6, Philipp Stalder, Ambassador Extraordinary and Plenipotentiary of the Swiss Confederation to Azerbaijan, visited Khazar University and met with Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. A number of issues of interstate education were discussed at the meeting.

# PRELIMINARY DISCUSSION OF PHD THESIS

On July 12, the preliminary discussion of the thesis 'Role of Brands in construction of National Identity' produced by Sana Imran, a PhD student from Pakistan to obtain a PhD degree in Business Organisation and Management, was held at the Department of Economics and Management, Khazar University. The research was conducted under the supervision of Dr. Elman Ibishov, PhD in Economics, Associate Professor, Senior Scientist of the Department of World Economy and Geo-economic Relations at the Scientific Economic Research Institute, Azerbaijan State Economic University.

Ceyhun Mammadov, PhD in Economics, Dean of the Faculty of Economics and Management, opened the discussion and gave brief information about Sana Imran's research work which was followed by a study presentation made by the PhD candidate. Dr. Elman Ibishov, the research supervisor, spoke about the theoretical and practical significance of the research, emphasized the importance of researching the topic related to Azerbaijan by a foreign researcher, and positively evaluated the candidate's work.

During the discussions, Eldar Shahgaldiyev, Head of the Division for Graduate Studies and Research, Bahadir Baysal, Vusal Mammadrzayev and Fuat Rasulov, the instructors of the department gave a positive feedback on the research work overall, however, pointed out that there were some shortcomings as well.

At the end of the discussion, it was unanimously decided that the presented thesis can be submitted for a defence after all the mentioned shortcomings have been corrected.



# ELMİ ŞURANIN CARİ DƏRS İLİNDƏ SON İÇLASI KEÇİRİLDİ

# THE LAST MEETING OF THE ACADEMIC COUNCIL WAS HELD IN THE CURRRENT ACADEMIC YEAR

İyulun 6-da Xəzər Universitetinin rektoru Hassan Niknafsın sədrliyi ilə universitet Elmi şurasının cari dərs ilində son iclası keçirildi. İclasın gündəliyinə əsasən rektor 2016-2017-ci tədris ilinin ümumi yekunları haqqında çıxış edərək, əldə olunmuş uğurlardan və qarşıda duran vəzifələrdən danışdı. O, həmçinin, ilin yekunlarına görə bir qrup əməkdaşın - Təmir-tikinti şöbəsinin işçisi Piri Piriyev, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Riyaziyyat departamentinin müəllimi Cavanşir Əzizov, Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, İqtisadiyyat və menecment fakültəsi dekanının köməkçisi Samirə Mirzəyeva, İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Lidiya Həmidova, İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva və Azərbaycan dili və ədəbiyat departamentinin müdiri Vurğun Əyyubun təşəkkürnaməyə layiq görüldüyünü bildirdi və təşəkkürnamələr təqdim olundu.

Universitetin prorektoru Məhəmməd Nuriyev Məzunlarla iş üzrə mərkəzin direktoru Baba Bayramlının Elmi şuranın tərkibinə daxil edildiy və şuranın elmi katibi təyin olunduğu haqqında məlumat verdi.

Məzunluq haqqında fakültə dekanları Elza Səmədova, Cabir Xəlilov, Ceyhun Məmmədov və dekan müavini Vəfa Aslanovanın, dərs vəsaitlərinin və fənn proqramlarının çapa təqdim olunması haqqında Elmi Şuranın katibi Baba Bayramlının məlumatları dinlənildi və müvafiq qərarlar qəbul edildi.

Elmi Şuranın iclasında universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, bir sıra məsələlərlə əlaqədar tövsiyələrini bildirdi. O, həmçinin, Direktorlar və Qəyyumlar Şurası sədrinin assistenti Sevda Salayevaya başqa işə keçməsi ilə əlaqədar uğurlar arzuladı və ona təşəkkürnamə təqdim etdi.

Elmi Şuranın iclasında cari məsələlər də müzakirə olundu.

On 6 July, the last meeting of the University Academic Council in the current academic year, chaired by Dr. Hassan Niknafs, the rector of Khazar University, was held. In accordance with the agenda of the meeting, the rector made a speech on the results of 2016-2017 Academic year and spoke about the achievements and upcoming tasks. Based on the results of the year he stated that a group of staff members - Piri Piriyev, Repair and construction department employee; Alovsat Amirbeyli, Director for Public Relations and Media; Javanshir Azizov, instructor at the Department of Mathematics; Rosa Arazova, Head of Department of History and Archeology; Samira Mirzayeva, Dean Assistant, School of Economics and Management; Lidiya Hamidova, instructor at the Department of English language and Literature; Raziya Isayeva, Head of Development Centre; Vurgun Eyyub, Head of Department of Azerbaijani language and Literature – deserve to be rewarded and the awards were presented to them.

Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs, informed that Baba Bayramli, Director of the Center for Alumni Relations, had become a member of the Academic Council and was appointed as the Secretary of the Academic Council. The deans of faculties – Elza Samadova, Jabir Khalilov, Jeyhun Mammadov, and dean assistant Vafa Aslanova – gave information about the students who are graduating in the current academic year. Baba Bayramli spoke about the textbooks and subject programs presented to be published, discussions on the issue were conducted and relevant decisions were made.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees spoke and gave his recommendations concerning some issues. He also wished success to Sevda Salayeva, assistant to the Chairman of Board of Directors and Trustees, who intended to change her job, and presented her an award.

The current issues were also discussed in the meeting of the Academic Council.

















# XƏZƏR UNİVERSİTETİNDƏ ERASMUS + NİZAMİ LAYİHƏSİNƏ DAİR SEMİNAR





İyunun 22-də Xəzər Universitetinin əməkdaşları üçün ERASMUS + Nizami layihəsi çərçivəsində seminar təşkil edildi. Nizami layihəsi Azərbaycan Respublikasında doktorantura təhsilinin rekonstruksiyasını həyata keçirən ERASMUS+ layihəsidir və bu layihə Fransanın Montpellier Universiteti tərəfindən idarə olunur.

Seminarı Nizami layihəsinin komanda üzvü, universitetin Bioloji elmlər departamentinin müdiri Dr. İradə Xəlilova açaraq layihə haqqında, onun tarixi, məqsədi və layihə çərçivəsində həyata keçirilən işlər barəsində geniş məlumat verdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, layihə komandasının üzvü, professor Hamlet İsaxanlı layihənin nailiyyətləri haqqında danışdı və Uppsala Universitetində keçirilmiş görüş zamanı müzakirə olunan prioritetlər barəsində öz fikirlərini söylədi.

Layihənin daha bir komanda üzvü, universitetin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva seminarın ikinci hissəsinə onun qaydalarını izah edərək başladı. Seminar "Learning cafe" metodu ilə keçirildi və bütün iştirakçılar bir - birlərinin işlərini görə və digər komandanın işinə öz şərhlərini də verə bildi .

Layihənin 7 prioritet sahəsi üzrə 7 müxtəlif qrup təşkil olunmuşdu. Hər qrup öz nəticələrinə dair təqdimatla çıxış etdi, bəzi komandalar yeni maraqlı ideyalar irəli sürdülər.



## NIZAMI WORKSHOP ON INTERNATIONALIZATION KHAZAR UNIVERSITY

**4. Your idea of wanting to "enrich the culture and soften the structure" is a great way of putting it. It certainly resonates with a lot of our experiences in Scotland where we have not only worked to change attitudes and practices but also tried to help formal processes like committees, surveys and regulations to work in accessible and inclusive ways that properly involve students. Is that the sort of thing you mean by this?**

Yes, exactly. Universities need to change attitudes, bring in a new culture of students being the centre, the partner of the process, they need to understand they are the most important figure in the education process: this is done for them and with them. This is about the attitudes of university leadership which need a change (so far, and this is Soviet legacy, the general attitude is that the student is accepted as someone who needs to be told what to do and how he/she needs to learn rather than a partner who needs to be asked what he/she wants and how they want it), a new mindset, and I am deeply sure that this will come only with new, up-to-date, well educated, open minded, in other words 'internationalized' university leadership.

The tools you have mentioned - committees, surveys and regulations are very good to implement the idea, if you have one and if you believe that the participants are good enough to contribute. This should come first to Azerbaijani HEIs.

**5. You've talked about the institutional challenges and opportunities. Finally, what about at the national level?**

At the national level, an external body like the one you have might help a lot, first in providing HEIs with feedback on how they are doing in student engagement, for current and future students to decide if they want to study at this kind of university. Second, providing training or seminars for students and university staff members which will help them to understand what is student engagement, why it is important and necessary for them. An external body playing a role of reviewer of student experiences will effect a positive change in the situation.

There are many models of positive changes, yours is one of them. So there is a way – the only thing left is the willpower in this case.

.

*Thanks to Raziya for being an interviewee. To suggest a future subject for interview, please contact us.*

*This interview is part of a series of occasional interviews on our website with student engagement practitioners – both staff and students, and from within Scotland's university and college sector and beyond. The interviews aim to capture the different perspectives that people have on student engagement in the quality of learning.*

http://www.sparqs.ac.uk/announcement-detail.php?page=639

# TƏHSİL - ELM - STARTUP VƏ TRİPL HELİKS MODELİ ÜZRƏ TAIEX SEMİNARI

# TAIEX WORKSHOP ON TRIPLE HELIX MODEL AND EDUCATION - SCIENCE - START - UP

İyunun 5 - 6 - da Bakıda TAIEX proqramı Azərbaycan Milli Elmlər Akademiyası və Təhsil Nazirliyi ilə birgə "Təhsil-Elm-Startup və Tripl Heliks modeli" mövzusunda seminar keçirdi. Seminarda Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri f.ü.f.d. Eldar Şahgəldiyev və Neft mühəndisliyi departamentinin müdiri g-m.ü.f.d. Qəşəm Zeynalov iştirak etdilər.

Seminarın məqsədi Təhsil-Elm-Startup konsepsiyasının faydalarını izah etmək və Tripl Heliks modelinin (akademiya, hökümət, sənaye) strukturu ilə tanışlığı təmin etmək idi. Avropa Birliyinin dörd müxtəlif üzv ölkəsinin mütəxəssisləri biliklərə əsaslanan iqtisadiyyat və Tripl Heliks modeli ilə bağlı təcrübələrini iştirakçılarla paylaşdılar.

On June 5-6, TAIEX workshop on Triple Helix Model and Education-Science-Start-up was organized in Baku in cooperation with Azerbaijan National Academy of Sciences and Azerbaijan Ministry of Education. Dr. Eldar Shahgaldiyev, head of the Division of Graduate Studies and Research and Dr. Gasham Zeynalov, head of the department of Petroleum Engineering, participated in the workshop.

The aim of the workshop was to explain the benefits of the Education-Science-Start-up (Academics, Government, and Industry) concept and to provide a better understanding of the Triple Helix system structure. Experts from four different EU member states shared their experiences on knowledge-based economy and the Triple Helix model.

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ALMANİYADA İŞGÜZAR SƏFƏRDƏ OLDULAR

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov və müəllimi Nicat Qarayev, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri Muxtar Hacıyev və müəllimi Zibər Hüseynova Erasmus +PROMIG layihəsinin ikinci fazası çərçivəsində Almaniyanın Oldenburq Universitetində iyunun 4-dən 11-dək keçirilən tədbirdə iştirak etdilər.

Tədbirin məqsədi 2013-cü ildə TEMPUS/UNİMİG layihəsi çərçivəsində Cənubi Qafqaz universitetlərində yaradılmış miqrasiya araşdırma mərkəzlərində və müvafiq magistratura proqramlarının tədrisində əldə edilən təcrübələri Əfqanıstanın Tabeş Universitetində yaradılması nəzərdə tutulan miqrasiya elmləri üzrə magistratura proqramının gələcək heyəti ilə bölüşmək və mövcud nailiyyətləri daha da təkmilləşdirmək idi.

Layihə zamanı əsas iş Tabeş Universitetinin müəllim və akademik heyəti ilə birlikdə həmin universitet üçün miqrasiya üzrə tədris proqramının hazırlanması, dizaynı və bu mövzu ətrafında gedən müzakirələrdən ibarət idi. Eyni zamanda, Almaniyanın miqrasiyanın idarə olunması və öyrənilməsi istiqamətində ixtisaslaşmış müəssisələri və qeyri-hökümət təşkilatları ilə də görüşlər keçirildi.

Səfər bütün iştirakçıların və müvafiq universitetlərin magistratura proqramında təhsil alan tələbələrin iştirakı ilə keçirilmiş konfransla yekunlaşdı. Konfransda növbəti mərhələ üçün miqrasiya sahəsində elmi araşdırmaların aparılması, bu araşdırmaların mövzuları, araşdırmalar zamanı yaranacaq data toplanması və analizlə bağlı çətinliklər və onların həlli istiqamətində müzakirələr aparıldı.

Xəzər Universiteti layihədə fəal iştirak edən tərəfdaşdır və layihənin ikinci mərhələsində digər universitetlər ilə əməkdaşlığı daha da genişləndirərək, araşdırmalar sahəsində yeni nailiyyətlər əldə etməyi qarşısına məqsəd qoymuşdur.

# ESFİDİP TEMPUS LAYİHƏSİNİN SON TƏDBİRİ OLARAQ MONİTORİNQLƏR KEÇİRİLDİ

# MONITORINGS HAVE BEEN IMPLEMENTED AS A FINAL ACTIVITY OF ESFIDIP TEMPUS PROJECT.

European Commission
TEMPUS

Xəzər Universitetinin koordinator olduğu "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFİDİP) Tempus layihəsinin son tədbiri olaraq monitorinqlər keçirilmişdir.

Mayın 18-də Əlil Təşkilatları İttifaqının (ƏTİ) sədri Davud Rəhimli və nümayəndələri Firuzə Babayeva və Ayaz Huseynov Xəzər Universitetinin, mayın 20-də Xəzər Universitetinin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva və Biologiya departamentinin müdiri Dr. İradə Xəlilova Naxçıvan Dövlət Universitetinin, mayın 30-da ESFİDİP layihəsinin rəhbəri Rima Məmmədova və ƏTİ sədri D. Rəhimli Lənkəran Dövlət Universitetinin, iyunun 8-də ESFİDİP layihəsinin rəhbəri R. Məmmədova, Xəzər Universitetinin Qəbul və tələbə şöbəsinin müdiri Lamiyə Namazova və ƏTİ sədri D. Rəhimli Sumqayıt Dövlət Universitetinin, iyunun 9-da Xəzər Universitetinin Təhsil fakültəsinin dekanı Elza Səmədova və ƏTİ sədri D. Rəhimli Gəncə Dövlət Universitetinin, iyunun 12-də isə ESFİDİP layihəsinin rəhbəri R. Məmmədova, Qəbul və tələbə şöbəsinin müdiri L. Namazova və ƏTİ sədri D. Rəhimli Azərbaycan Dövlət İqtisad Universitetinin monitorinqini həyata keçirmişlər.

Monitorinqlərin nəticəsi olaraq universitetlərin ESFİDİP layihəsi ilə əlaqədar həyata keçirdikləri tədbirlər və eyni layihə çərçivəsində yaradılmış "Əlilliyi olan Tələbələr üçün Mərkəz"lərin fəaliyyətləri qiymətləndirildi, məsləhət və təkliflər verildi.

Partner universities of Tempus Project 'The Establishment of Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan' (ESFIDIP), whose coordinator was Khazar University, have been monitored as the final activity of the project.

Khazar University, a coordinator of the project, was monitored on 18 May, by Davud Rahimli, the Head of the Union of Disabled People Organizations, Firuza Babayeva and Ayaz Huseynov, the representatives of the Union. The monitoring process of the other partner universities were carried out on the following dates: 20 May - Nakhchivan State University was monitored by Raziya Isayeva, the Director of Development, Khazar University and Dr. Irada Khalilova, the Head of the Biology Department; 30 May - Lankaran State University was monitored by Rima Mammadova, the project manager of ESFIDIP and Davud Rahimli, the Head of the Union of Disabled People Organizations; 8 June - Sumgayit State University was observed by Rima Mammadova, the project manager of ESFIDIP, Lamiya Namazova, Head of the Department of Admission and Davud Rahimli, the Head of the Union of Disabled People Organizations; 9 June - Ganja State University was checked by Dr. Elza Samadova, Dean of the School of Education and Davud Rahimli, the Head of the Union of Disabled People Organizations; 12 June - Azerbaijan State Economic University was examined by Rima Mammadova, the project manager of ESFIDIP, Lamiya Namazova, Head of the Admission Department and Davud Rahimli, the Head of the Union of Disabled People Organizations.

During the monitoring process the coordinators of 'ESFIDIP' Project and of 'Centres for Disabled Students' were met, the contributions of the universities within the framework of the project and the activities of the Centres for Disabled Students, created within the same project, were assessed and recommendations were given.




# "CAN" AZERBAYCAN!

**Ali Gürbüz**

*2017-ci il iyunun 8-də Türkiyənin daliderki.com saytında yerləşdirilmiş məqaləni təqdim edirik.*

Yazımın başlığını belki çok genel bulabilirsiniz, ancak Azerbaycan Bakü'de konuştuğum, tanıştığım ne kadar insan varsa, çok can davranışları ile beni çok şaşırttılar ve şaşırtmaya devam ediyorlar. Bakü, yerel adıyla Bakı, geniş bir körfez çevresinde kurulmuş, Hazar denizi kıyısında bulunan özellikle de geceleri bina aydınlatmaları ile daha da güzelleşen bir şehir. Şimdi gelelim hayatımın yarı parçası haline gelen Azerbaycan konusuna.

2011 Ekim ayında İstanbul'da tamamen şans eseri bir kız ile tanıştım. Kim derdi ki, bu kızla evlenip çoluk çocuğa karışacağım.

Evet, eşim Azerbaycan'lı, eğitimci bir anne babanın kızı, orada üniversiteye başlamış, devamını burada getirmiş, doktor olmuş. Tanıştıktan 6 ay içerisinde sol parmağımda yüzüğüm vardı.

İlk Azerbaycan'a gidişim, baldızımın evliliği münasebetiyle oldu, Nisan 2012'de Bakü'ye gittik. Uçaktan inip apronda otobüse bindiğimde, kapı üzerinde "qapıya diqqət edin" kelimesini okuduğumda oldukça şaşırmış aynı zamanda mutlu olmuştum, zira "q, ə" gibi harfler olmasına rağmen, rahatça okuduğumu anlayabiliyordum.

Azerbaycan'a uçak ile vardığınızda, Heydər Əliyev Havalimanında almanız gereken kapı vizesi ile ülkeye giriş yapabiliyorsunuz. Yanınızda kişi başı 10 Amerikan Dolar'ı bulundurmanız gerekiyor. Vize işlemlerimizi hallettikten sonra, diğer şaşkınlığımı pasaport polisi ile yaşadım, zira bana hoş gelmişiniz, necəsiniz demesi yurtdışına daha evvel bir Türk olarak çıkıp da hiç böyle bir davranışla karşılaşmadığımdan dolayı, beni hem çok şaşırttı hem de çok mutlu etti. Azerbaycan'dan çıkış yaparken de pasaport polisi "erkən gedirsiniz, biraz daha kalaydınız ya" demesi ile kendimi değil ülkemde, kendi evimde gibi hissettim. Ziyaret ettiğiniz ülkenin pasaport polisinin bu kadar candan yaklaşması insanı gerçekten derinden etkiliyor. Havalimanından eve giderken yol üzerinde toyuq qanadları(tavuk kanatları) ile ilgili reklam panoları gözüme çarpıp sesli okuduğumda tatlı tatlı gülümsüyordum, zira hem okuduğumu anlıyordum hem de bazı ifadeler ister istemez tebessüm etmeme sebep oluyordu, eşim bozuluyordu bana dalga geçtiğimi düşünerek.

İlk ziyaret sebebim, baldızımın düğünü demiştim, üzerine basa basa söylüyorum, mutlaka Azerbaycan düğünlerini de görmeniz gerekiyor. Düğünde en çok dikkatimi çeken 2 olay vardı, birincisi özellikle genç kız ve erkeklerin yaptığı danslar, Azerbaycan ne mutlu ki, kültürünü kaybetmemiş bir ülke, halen kendi halk müzikleri eşliğinde davetli gençlerin yaptığı estetik açıdan muhteşem dansları izlemeniz gerekiyor. Dikkatimi çeken diğer olay da düğün sonunda davetliler mekandan çıktıktan sonra, servis yapan tüm garson kardeşlerimizin sofralara oturup servis tabaklarında dokunulmayan yemekleri yemelerine izin verilmesiydi. Derin iz bıraktı bende, israf edilmedi onca yemek.

Azerbaycan'da konuşulan lehçeden midir bilemiyorum, konuştuğunuz insanlar bizim ülkemizdeki tertemiz Anadolu insanını anımsatıyor sanırım, bu lehçe insana farklı duygular yaşattırıyor. Mesela oradan bir arkadaşımın bana göndermiş olduğu doğum günü mesajı aynen şöyleydi: **"Mənim qardaşım, səni ürəkdən təbrik edirəm. Öpüb bağrıma basıram səni!"** Sizce de çok candan bir ifade şekli değil mi?

Azerbaycan'da sıkça kullanılan bazı Azerice kelimeleri ve söyleniş biçiminin güzelliğini de siz-

lerle paylaşmadan edemeyeceğim:

Salam: selam
Necəsiniz? : nasılsınız?
Necəsən? : nasılsın?
Çörək: ekmek
Danışmaq: konuşmak
Körpə : bebek
Tanış olmaq : tanışmak
Pul: para
Xoşbəxt: mutlu
Hara gədirsən?: nereye gidiyorsun
Çücə: piliç
Qadağan : yasak

Azerbaycan'da yazlar genelde oldukça sıcak geçiyor, Ağustos ayı içerisinde hava çok rahat 40 derecelere ulaşıyor, Şuvelan taraflarında çok güzel plajlar mevcut, yüzüp eğlenebilir, güzel yemeklerini tadıp, yerel bira markası olan Xirdalan'ı içebilirsiniz, ancak Hazar Denizi banyo suyu sıcaklığında olduğundan serinlemeniz oldukça zor. Tek teselli aksam saatlerinde başlayan Bakü'nün o muhteşem rüzgarı, ayrıca buz gibi Xirdalan markalı bira, zira oranın derece olarak yumusak suyu ile yapılıyor ve tadına etki ediyor, bu bilgiyi de bana Dalga Beach'de bir Türk verdi. Lokal biraları herzaman popüler biralara tercih ederim.

Bakü'nün ayrıca tarihi kısmı olan eski şehrini ziyaret etmeyi, kız kulesini, Devlet Opera ve Bale Tiyatrosunu ziyaret etmeyi, sırtınızı körfezde Bakü'ye döndüğünüzde sağ tarafta kalan tepeye çıkıp Bakü'yü seyredalmayı ve belki de bugüne kadar gördüğüm en büyük Azerbaycan bayrağının nazlı nazlı Bakü rüzgarında dalgalanmasını izlemeyi unutmayın lütfen. Çevrede bulunan onlarca lokantada güzel yemekler ve ayrıca gece hayatını seviyorsanız bazılarında bulunan muhtesem deniz manzarası eşliğinde onlarca bar ve gece kulübü sizleri bekliyor. Araba ile dolaşırken petrol kuyuları göreceksiniz, şaşırmayın.

Sizlere tavsiyem, mutlaka ama mutlaka Bakü'ye en azından bir kere gidip 3-5 gün tatil yapıp, lezzetli yemeklerini tadıp, sevgi dolu, tertemiz insanlarını tanımanız olacaktır.

**İndidən yaxşı səfərlər, Bakıda yaxşı əyləncələr! Orada çox xoşbəxt bir tətil keçirəcəksiniz, əmin olun!**

*https://daliderki.com/*

## XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ MİQRANTLARA HƏSR OLUNMUŞ KONFRANSDA

İyunun 14-də Xəzər Universitetinin layihə koordinatoru Rima Məmmədova Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tərəfindən həyata keçirilən "Böhran kontekstində miqrantların müdafiəsinə dair milli məsləhətləşmələr" adlı konfransda iştirak etdi.

Konfransda Dövlət Miqrasiya Xidmətinin rəis müavini Pərviz Musayev, Böhranla üzləşən Ölkələrdə Miqrantların Təşəbbüsü katibliyinin əməkdaşı Chiara Milano və Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Serhan Aktoprak çıxış etdilər.

Görüş zamanı Qlobal Kompakt və Böhranla Üzləşən Ölkələrdə Miqrantların Təşəbbüsü haqqında məlumat verildi və mövzu ətrafında fikirlər söylənildi. R. Məmmədova miqrantların təhsil, xüsusilə, ali təhsil əldə etmələrinin önəmli olduğunu və bu sahəyə daha çox diqqət ayrılmağının vacib olduğunu bildirdi.

Konfrans digər məsələlərin müzakirəsi və təkliflər verilməsi ilə sona bitdi.

## THE REPRESENTATIVE OF KHAZAR UNİVERSITY PARTICIPATED IN THE MIGRANTS PROTECTION CONFERENCE

On June 14, Rima Mammadova, the project coordinator of Khazar University attended the conference on "National consultations on the protection of migrants in the context of Crisis" organised by the International Organization for Migration (IOM).

Parviz Musayev, Deputy Head of the State Migration, Chiara Milano, the Migrants in Countries in Crisis Secretariat (MICIC) and Serhan Aktoprak, Chief of the International Organization for Migration (IOM) delivered speeches in the conference.

The information about migrants' initiative regarding Global Compact and Countries in Crisis and opinions related to the topic were discussed during the meeting. Rima Mammadova mentioned the importance of getting a higher education for migrants and stated the necessity of paying more attention to this area. The conference ended with further dicussions and proposals.



# NDU-NUN TƏLƏBƏLƏRİ MÜKAFATLANDIRILIB

18 iyun İnsan hüquqları günü münasibətilə ali təhsil müəssisələri arasında keçirilən "Xəmsə" intellektual oyununda NDU birinci yerə layiq görülüb. Bu münasibətlə universitetin tələbələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və NDU tərəfindən sertifikat və fəxri fərmanlarla təltif ediliblər.

Bu münasibətlə iyunun 20-də keçirilən tədbirdə tələbələri təbrik edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğıdan danışıb. Vurğulanıb ki, keçirilən yarışlar gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında biliyin və elmin nüfuzunu artırmaq, Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətini və tarixini təbliğ etmək, eləcə də gənclərin asudə vaxtlarının səmərəli təşkilinə nail olmaq məqsədini daşıyır. Rektor gənclərə bundan sonrakı yarışlarda uğurlar arzulayıb.

Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, dosent Qərib Allahverdiyev muxtar respublikada gənclərin rahat yaşamaları, yaxşı təhsil almaları, normal əmək fəaliyyəti göstərmələri üçün uğurlu dövlət proqramlarının həyata keçirildiyini deyib.

Tədbirdə tələbələr adından çıxış edən Beynəlxalq münasibətlər ixtisasının III kurs tələbəsi Aslan Səfərov ölkəmizdə, o cümlədən muxtar respublikada gənclərin fiziki və mənəvi cəhətdən sağlam, elmli olmaları üçün vacib addımların atıldığını önə çəkərək, yeniyetmə və gənclər üçün yaradılmış şəraitə görə minnətdarlıq bildirib.

Sonra rektor tələbələrə mükafatlar təqdim edib.



# NDU-NUN KOLLEKTİVİ NƏBATAT BAĞINDA

İyulun 10-da NDU-nun kollektivi "Muzey günləri" çərçivəsində Babək rayonunun Şıxmahmud kəndi yaxınlığında yerləşən Nəbatat bağında olub.

Kollektivə məlumat verilib ki, bu unikal məkanın yaradılmasında əsas məqsəd insanların Avstraliyanın, Afrikanın, Amerikanın, Aralıq dənizi ölkələrinin, Cənub-Şərqi Asiyanın, Orta Asiyanın, Uzaq Şərqin, Qafqazın zəngin flora nümunələri ilə tanış edilməsidir. Bağın nadir bitkilər kolleksiyası sahəsində Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının qırmızı kitablarına daxil edilmiş bəzi bitki növləri mövcuddur. Burada ayrı-ayrı flora nümunələri üçün sahələr, təcrübə yerləri, nadir bitkilər kolleksiyası, tingçilik sahələri, həmçinin meyvə genofondu bağı yaradılıb. Bu da yerli və məhsuldar toxum sortlarının bərpası baxımından mühüm əhəmiyyət daşıyır. Təcrübə sahələrində NDU-nun Biologiya və Coğrafiya ixtisaslarının tələbələrinin iştirakı ilə açıq dərslər keçilir.

Qeyd edilib ki, hazırda Nəbatat bağının sahəsi 13,2 hektar, muxtar respublika üzrə balansında olan torpaqların sahəsi isə 80 hektardan artıqdır. Nəbatat bağında "Ultra Sera" ailəsinə məxsus son texnologiyaya malik istilikxana quraşdırılıb. İstilikxana tam avtomatlaşdırılmış iqlim-nəzarət, istilik, havalandırma və suvarma sistemləri ilə təchiz edilib. Müasir texnologiyaların tətbiqi bitkilərin normal inkişafına imkan verir. Burada sitrus və bu mənşəli digər bitkilər üçün 10 bölmə yaradılıb və 100-dən çox bitki əkilib. Artıq bu bitki növlərinin bəziləri muxtar respublikanın iqlim şəraitinə uyğunlaşdırılıb və açıq havada çoxaldılmasına başlanılıb.

Nəbatat bağı ilə tanışlıq universitet əməkdaşlarında xoş təəssürat yaradıb.

**Səadət Əliyeva,**
*NDU-nun Mətbuat şöbəsinin müdiri*

# HERE SEMINAR ON SOCIAL ENGAGEMENT OF UNIVERSITIES

Raziya Isayeva, Director of Development of Khazar University, Higher Education Reform Expert has participated in the HERE seminar devoted to Social Engagement of the university. The seminar covered the cases EU universities like University of Bremen, Germany, Institute of Advanced Studies, Austria, University west, Sweden, University College Cork, Ireland, Hadassah Academic College, Israel as well as HERE countries. HEREs and key speakers analyzed the different components of 'social engagement' and third mission. The discussions included such issues as an access to higher education, catering to minority and marginalized learners, but also how to weave social engagement and responsibility into the curriculum.

A special session devoted to learn how universities, mostly in the case of European Universities, are responding to migrant and refugee learner needs, provided by the fact that this is very diligent issue of the Mediterranean currently. The meeting co-hosted by the University of Nicosia and CARDET, a research center that specializes in social inclusion, migrant education and ICT in education took place on 13-14 of June, 2017.

The seminar discussed diverse issues and the challenges of HEIs and HE systems that they need to solve to meet the diverse needs of learners and also be engaged with society and stakeholders to ensure educational impact on them.

The seminar ended up on a very positive note and with extensive plan of future activities (joint researches, events etc.) to assist the universities to become more engaged with the society they work with and for.

# "XƏZƏR"İN ƏMƏKDAŞI RESPUBLİKA SEMİNARINDA

İyunun 16-da Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini, doktorant Mələk Kərimova Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və Fəlsəfi Maarifçilik Assosiasiyası İçtimai Birliyinin birgə təşkil etdikləri "Mənəvi birliyimizi yaşadaq və inkişaf etdirək" adlı seminarda iştirak etdi.

AMEA Fəlsəfə İnstitutunun Estetika şöbəsinin müdiri və Fəlsəfi Maarifçilik Assosiasiyası İçtimai Birliyinin sədri professor Adil Əsədovun moderatorluğu ilə keçən seminarda milli-mənəvi dəyərlərin qorunması ətrafında maraqlı müzakirələr aparıldı.

M.Kərimova müzakirələrdə iştirak edərək, təkliflər irəli sürdü.

# VURĞUN ƏYYUBUN "HEKAYƏ TƏHLİLLƏRİ" SİLSİLƏSİNDƏN NÖVBƏTİ YAZISI

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri dosent Vurğun Əyyubun "Hekayə təhlilləri" silsiləsindən növbəti yazısı xeber365.com saytında çap olunmuşdur. Müəllif bu məqaləsində yazıçı Şərif Ağayarın "Şəkil" hekayəsini mövzu, ideya və sənətkarlıq baxımından təhlil etmişdir.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*http://xeber365.com/haber-oxucu-da-onlarla-birlikd-babani-kor-etm-nin-iztirablarini-yasayir---vurgun-yyub-yazir-8383.html*

# THE NEXT ARTICLE FROM THE SERIES 'ANALYSES OF THE STORY' BY VURGUN EYYUB

The next article from the series 'Analyses of the Story' by Vurgun Eyyub, the assistant professor, Head of Azerbaijani language and Literature Department was published on the website xeber365.com.

In this article the author analyzed the story "Picture" by Sharif Agayar in terms of topic, idea and art.

The article can be read via this link:

http://xeber365.com/haber-oxucu-da-onlarla-birlikd-babani-kor-etm-nin-iztirablarini-yasayir---vurgun-yyub-yazir-8383.html





## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ MAGİSTR MÜDAFİƏSİ KEÇİRİLDİ

İyunun 20-də Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin magistr tələbələri Könül Mərdanova və Nuranə İsmayılovanın İngilis dili və ədəbiyyatı departamentində dissertasiya müdafiəsi keçirildi.

Müdafiədə Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev, Azərbaycan Dillər Universitetinin müəllimləri İrina Orucova və İradə Səmədova, Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin müdir müavini Eynur Mehdiyev, Alt proqramlar üzrə koordinatoru Milana Abbasova, departamentin müəllimləri Cəmalə Məmmədova və Gülnar Abbasova iştirak etdilər.

Müdafiə zamanı magistr tələbələr öz tədqiqat işləri haqqında ətraflı təqdimatla çıxış etdilər və onlara verilən sualları cavablandırdılar.

Hər iki tələbə öz elmi işlərini uğurla müdafiə edib, magistr adına layiq görüldülər.

## MASTER THESIS DEFENCE WAS HELD AT ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT

On June 20, Konul Mardanova and Nurana Ismayilova, the Master students from the School of Humanities and Social Sciences defended their Master theses at English language and Literature Department.

Dr. Eldar Shahgaldiyev, the Head of the Division of Graduate Studies and Research; Dr. Irina Orujova and Dr. Irada Samadova, the teachers from Azerbaijan University of Languages; Eynur Mehdiyev, vice-chair of English language and Literature Department; Milana Abbasova, Minor Programs Coordinator; PhD. Jamala Mammadova and Gulnar Abasova, teachers of the department, took part in the defence.

During the defence Master students gave thorough information about their research and answered the questions.

Each student successfully defended her thesis and was awarded a Master's degree.







# XƏZƏR UNİVERSİTETİNDƏ KARYERA SƏRGİSİ

# NEXT ANNUAL CAREER FAİR AT KHAZAR UNİVERSİTY

Mayın 25-də Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı və Baker Tilly Azərbaycan şirkətinin sponsorluğu ilə universitetdə karyera sərgisi keçirildi. Sərgidə Azərbaycan Marketinq Cəmiyyəti, Coca-Cola Bottlers Azərbaycan, Azərsun Holdinq, BTB Bank, "Barattson" Biznes və Maliyyə Məktəbi, Employ LLC, Express Bank, Facility Management Group, GR8 Club, KPMG-Azərbaycan, Melissa Group, MET-AK LLC, PMD Group, Pricewaterhouse Coopers və Veyseloğlu şirkətləri iştirak edirdilər.

Sərgidə Xəzər Universitetinin tələbə və məzunları ilə yanaşı, digər universitetlərin tələbə və məzunları da iştirak etdilər. İştirakçılar şirkətlərin verdiyi anket formalarını doldurub, öz CV-lərini təqdim etdilər.

On May 25, the Khazar University Career Center with the sponsorship of Baker Tilly in Azerbaijan organized a Career Fair at the university. The fair took place from 11:00 to 13:00.

Companies that participated included: Azerbaijan Marketing Society, Azerbaijan Coca-Cola Bottlers, Azərsun Holding, Baker Tilly, Bank BTB, Barattson School of Business & Finance, Employ LLC, Express Bank, Facility Management Group, GR8 Club, KPMG Azerbaijan, Melissa Group, MET-AK LLC, PMD Group, PricewaterhouseCoopers and Veyseloğlu Company.

Graduates and students from other universities also participated in the event, where they had the opportunity to fill out applications and give out their CVs.






## "XƏZƏR"DƏ XEYRİYYƏ YARMARKASI

Mayın 25-də Xəzər Universiteti Leykemiyaya qarşı Mübarizə İctimai Birliyi ilə birlikdə universitetdə "Cahangirə dəstək olaq" adlı xeyriyyə yarmarkası keçirdilər.

Yarmarkada tələbələr müxtəlif ev şirniyyatları, bəzək əşyaları, rəsmlər satışa çıxardılar. Kitab satışı təşkil olundu. Tələbələr tədbirdə musiqili çıxışları ilə də iştirak etdilər.

Universitet əməkdaşlarının və tələbələrin fəal iştirak etdikləri yarmarkada toplanmış vəsait qan xərçəngi xəstəliyinə məruz qalmış 12 yaşlı Cahangirin müalicəsinə sərf olunacaq.

## CHARITY FAIR AT KHAZAR UNIVERSITY

On May 25, a Charity Fair entitled 'Let's support Jahangir' was held at Khazar University in collaboration with the Public Union for the Fight against Leukaemia.

Various home baked cookies, decorative items, drawings were put on sale by the students. Book sales were organised. The students performed some music at the event.

The funds collected at the fair by the active participation of the university staff and the students will be spent on the treatment of 12 year old Jahangir who is suffering from blood cancer.






## "NETVORK MARKETİNQ NƏDİR?" MÖVZUSUNDA SEMİNAR

Mayın 25-də Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə universitetin Mərmər zalında "Netvork marketinq nədir?" mövzusunda seminar keçirildi. Seminarda Türkiyədə şəbəkə marketinqi üzrə böyük uğur əldə etmiş gənc biznesmen Enes Olgun çıxış etdi.

Seminarın sonunda tələbələrin sualları cavablandırıldı.

## A SEMINAR ON "WHAT IS NETWORK MARKETING?"

On May 25, in cooperation with the School of Economics and Management, Khazar University, a seminar on 'What is Network Marketing?' was held in Marble Hall of Khazar University. Enes Olgun, one of the successful young businessmen in Network Marketing in Turkey delivered a speech at the seminar. The students of the School of Economics and Management asked the questions to the guest and received answers.

## DÖVLƏT MİQRASİYA XİDMƏTİ GÖRÜŞ KEÇİRDİ

İyunun 9-da Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti "Caspian Business" otelinin konfrans zalında ölkə universitetləri və bir sıra şirkətlərin miqrasiya işləri üzrə əməkdaşları ilə görüş keçirdi.

Görüşdə Xəzər Universiteti Beynəlxalq əlaqələr ofisinin assistenti Elxan Kasimov da iştirak etdi.

Görüşün əsas mövzusu əmək miqrasiyası kvotası haqqında idi. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində bir sıra vacib məsələlər də müzakirə olundu.

## ANNUAL MEETING OF STATE MIGRATION SERVICE

On June 9, an annual meeting on Migration Issues of the State Migration Service of Azerbaijan Republic was organised for the representatives of International Affairs Offices of local universities and the representatives of companies at the conference hall of the Caspian Business Hotel. The main topic of the meeting was about the labour migration quota.

Elkhan Kasimov, the assistant of the International Affairs Office of Khazar University who is in charge of migration issues, participated in the meeting. Important topics concerning foreigners and persons without citizenship in Azerbaijan were covered and discussed in the meeting.



## XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ XARİCİ SƏFƏRLƏRDƏ OLDULAR

Mayın 22 - 26-da Portuqaliyanın Minyo Universitetində Erasmus+ "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" (*"Advocacy Establishment for Students through Ombudsman Position"* - AESOP) layihəsi çərçivəsində layihə tərəfdaşlarının görüşü keçirildi. Görüşün əsas məqsədi Minyo Universitetinin Ombudsman ofisinin fəaliyyəti ilə tanış olmaq və onların təcrübələrini öyrənməkdən ibarət idi.

Görüşdə Xəzər Universitetini Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova, İngilis dili və ədəbiyyatı departamentinin müdir əvəzi Eynur Mehdiyev, Qəbul və tələbə şöbəsinin müdiri Lamiyə Namazova, Pyp koordinator assistenti Arzu Rzayeva və layihə koordinatoru Rima Məmmədova təmsil edirdilər.

Qeyd edək ki, eyni layihə çərçivəsində mayın 1-dən 5-dək İtaliyanın L'Akvila Universitetində də görüş keçirilmişdi. Görüşdə Xəzər Universitetini İngilis dili və ədəbiyyatı departamentinin müdir əvəzi Eynur Mehdiyev, Qəbul və tələbə şöbəsinin müdiri Lamiyə Namazova, Pyp koordinator assistenti Arzu Rzayeva və layihə koordinatoru Rima Məmmədova təmsil etmişdilər.

## REPRESENTATIVES OF KHAZAR UNIVERSITY AT THE INTERNATIONAL MEETINGS

On may 22-26, a meeting of the "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) project partners was held at the University of Minho. The purpose of the meeting was to familiarize the participants with the work of the office of the Ombudsman at the University of Minho.

Khazar University was represented during the meeting by Lyudmila Sotova, Head of Quality Assurance Center, Eynur Mehdiyev, Vice chair of English language and Literature department, Lamia Namazova, Head of Admission Office, Arzu Rizayeva, Pyp coordinator assistant and Rima Mammadova, Project coordinator.

On May 01-05, a meeting was held at the University of L'Aquila in the framework of the same project. Khazar University was represented during the meeting by Eynur Mehdiyev, Vice chair of English language and Literature department, Lamia Namazova, Head of Admission Office, Arzu Rizayeva, Pyp coordinator assistant and Rima Mammadova, Project coordinator.




## ƏN ÇOX OXUNAN KİTABLAR MÜZAKİRƏ EDİLDİ

## "THE MOST WIDELY READ BOOKS" WERE DISCUSSED

Mayın 26-da Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzində "Oxucular və kitabxana əməkdaşları arasında ən çox oxunan kitabların müzakirəsi" adlı tədbir keçirildi.

Müzakirədə oxunan kitabların təhlili və dövrümüzdəki hadisələr ilə uyğunluğu müqayisə olundu.

Tədbir tələbələr tərəfindən çox maraqla qarşılandı və təkrar keçirilməsi arzu edildi.

On May 26, the event entitled "The Discussion of the most widely read books between readers and library employees' was conducted at the Library and Information Centre, Khazar University.

The analysis of the books read and their compatibility with today's events were compared during the discussion.

The event was highly appreciated by the students and there was a desire to conduct such events again in the future.





## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ KONFRANSDA

İyunun 5-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) təşkilatçılığı ilə "Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əlaqələri: gələcəyə baxış" mövzusunda beynəlxalq konfrans keçirildi.

Konfransda Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin əməkdaşı professor Habil Məmmədov da iştirak edirdi.

## THE TEACHER OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT AT THE INTERNATIONAL CONFERENCE

On June 5, the international conference entitled " Azerbaijani- Georgian-Turkish Relations: Vision for the Future" was organised by the Centre for Strategic Studies under the President of Azerbaijan Republic.

Professor Habil Mammadov, a teacher of History and Archeology Department, Khazar University participated at the conference.

# TƏLƏBƏLƏRİN İSMAYILLIYA EKSKURSİYASI

# STUDENTS' EXCURSION TO ISMAYILLI




İyunun 3-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə Təhsil fakültəsi coğrafiya müəllimliyi ixtisasının tələbələri üçün şəhərsalma və hidrologiya fənləri üzrə İsmayıllı rayonunda ekskursiya təşkil edildi.

Hidrologiya fənni üzrə Girdimançayın axım formaları və Lahıc qəsəbəsinin su sistemi təhlil edildi. Şəhərsalma fənnindən isə qədim Lahıc qəsəbəsinin planı öyrənildi.

On June 3rd, an excursion was organised in Ismayilli by the department of Geography and the Environment for the students majoring in Geography Teacher Education, the School of Education, on the subjects of Urban Planning and Hydrology.

The flow forms the Girdimanchay were analysed on the subject of Hydrology and the students became familiar with the water system of Lahic. They also learned the urban planning of Ancient Lahic on the subject of Urban Planning.






## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞININ ESSESİ TANPINARA HƏSR OLUNMUŞ TOPLUDA

Bakı Yunus Emre İnstitutunun təşkil etdiyi "Tanpınarı kəşf edirəm" adlı esse yarışmasında Xəzər Universiteti İqtisadiyyat və menecment departamentinin assistenti Aytən Baxışova iştirak etmiş və sertifikat almışdır.

Qeyd edək ki, Aytən Baxışovanın "Tanpınarı kəşf edirəm" essesinin yer aldığı "A.H.Tanpınar məmləkətdən dünyaya" adlı esseler toplusu 2017-ci ilin may ayında nəşr olunmuşdur.

## THE ESSAY OF KHAZAR EMPLOYEE IS IN COLLECTION DEDICATED TO TANPINAR

Aytan Bakhishova, the assistant of the Department of Economics and Management, Khazar University, took part in the Essay Competition entitled 'Discovering Tanpinar' organised by Baku Yunus Emre Institute and was awarded with a certificate.

It should be noted that the essay collection entitled 'A. H. Tanpinar, from the Country to the World' which also includes the essay 'Discovering Tanpinar' produced by Aytan Bakhishova, was published in May 2017.

## "XƏZƏR XƏBƏR"İN ƏMƏKDAŞININ MƏQALƏSİ ÇAP OLUNUB

Azərbaycan Yazıçılar Birliyinin aylıq ədəbi-bədii orqanı olan "Azərbaycan" jurnalının 2017-ci il iyun nömrəsində "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayevin "Qur´anın tərcüməsinə dair bəzi mülahizələr" adlı məqaləsi dərc olunub.

"Nəzər nöqtəsi" rubrikası ilə verilmiş məqalədə müəllif Qur´andan bəzi söz və ifadələrin yanlış tərcümə edildiyini araşdırır və onların düzgün tərcümə modelini təklif edir.

## ARTICLE OF *KHAZAR REVIEW* JOURNAL EMPLOYEE IS PUBLISHED

The article entitled 'Some considerations on the translation of Quran' produced by Alirza Balayev, the Honored journalist and Deputy Editor-in-Chief of *Khazar Review* journal, was published in June, 2017 edition of 'Azerbaijan' journal, the monthly literary-artistic body of the Azerbaijan Writers Union.

The author investigates the incorrect translation of some words and phrases in Quran and suggests their proper translation model in the article presented as 'Viewpoint' rubric.




## PSİXOLOGİYA DEPARTAMENTİNDƏ MAGİSTR İŞİNİN MÜDAFİƏSİ OLDU

İyunun 30-da Xəzər Universiteti Psixologiya departamentinin klinik psixologiya üzrə magistr tələbəsi Aynur Ələsgərovanın "Evtanaziyanın sosial-psixoloji, tibbi və hüquqi aspektləri" adlı dissertasiya işinin müdafiəsi keçirildi. A. Ələsgərova elmi işin yeniliyi və əhəmiyyəti barədə ətraflı şərh verdi. Dissertasiya işi müsbət qiymətləndirildi.



## TARİXÇİ TƏLƏBƏLƏR "AZƏRBAYCAN MİLLİ GEYİMLƏRİ OLDUĞU KİMİ" SƏRGİSİNDƏ

Xəzər Universiteti Təhsil fakültəsinin "Tarix müəllimliyi" ixtisasının bir qrup IV kurs tələbəsi iyul ayında AMEA Milli Azərbaycan Tarixi Muzeyində keçirilmiş "Azərbaycan milli geyimləri olduğu kimi" sərgisində olmuşdur. Onlara muzeyin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri, t.ü.f.d Səbuhi Əhmədov bələdçilik edərək, geyimlər haqqında məlumat vermişdir. Tələbələr Azərbaycan milli geyimlərinə heyranlıqla baxmış və sərgidən zəngin təəssüratla ayrılmışlar.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ İVANE JAVAXİŞVİLİ ADINA TİFLİS DÖVLƏT UNİVERSİTETİNDƏ OLDU

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Samirə Qarayeva İvane Javaxişvili adına Tiflis Dövlət Universitetində İctimai və siyasi elmlər fakültəsi tərəfindən iyunun 22-24-də təşkil olunmuş "Kainat, cəmiyyət, siyasət - davamlı inkişafın regional məqsədləri" adlı V beynəlxalq elmi konfransda iştirak etmişdir. S.Qarayeva konfransda "Azərbaycanda gender problemləri" adlı məruzəsi ilə çıxış etdiyinə görə ona sertifikat təqdim olunmuşdur.

Konfransda gürcüstanlı tədqiqatçılarla yanaşı, ABŞ, Almaniya, Çin, Belçika, Meksika, Türkiyə, Azərbaycan və İrandan gəlmiş tədqiqatçılar iştirak etmişlər.

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİNİN MÜƏLLİMİ FƏLSƏFƏ DOKTORLUĞU DİSSERTASİYASI MÜDAFİƏ ETDİ

İyulun 4-də AMEA Nəsimi adına Dilçilik İnstitutunun Müdafiə şurasında Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin müəllimi, Odlar Yurdu Universitetinin doktorantı Elmira Əliyevanın "Tematik proqressiya və diskursun yaranması (Azərbaycan və ingilis dili materialları əsasında)" mövzusunda professor Əfqan Abdullayevin elmi rəhbərliyi ilə yazdığı filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasının müdafiəsi keçirilmişdir.

İclasa Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü Möhsün Nağısoylu sədrlik etmişdir. İclasın sonunda Müdafiə şurası Elmira Əliyevaya filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsi haqqında yekdil qərar qəbul etmişdir.

# XƏZƏR UNİVERSİTETİ MULTİMEDİA MƏRKƏZİ TƏQDİM EDİR

Xəzər Universiteti Multimedia mərkəzinin əməkdaşları növbəti treninqlərini mərkəzin direktoru Natella Barkayanın rəhbərliyi ilə "Qala" Dövlət Tarix- Etnoqrafiya Qoruğunda keçirmiş, maraqlı görüntüləri lentə almışlar.























# ƏLÇATMAZ ARZU

*(hekayə)*

**Taseki İnoue**
*Yaponiya*

Alnımı pəncərə şüşəsinə diriyərək, diqqətlə uzağa - sehrbazlar truppasının gələcəyi səmtə baxırdım.

Pəncərəmdən uzunsov düzənlikdə yerləşən bütöv kənd görünürdü. Kənd boyunca çala-çuxurla dolu yol uzanırdı. Sanki xətkeşlə çəkilmiş dümdüz yol kəndin tən ortasından keçərək, dağlara qədər uzanıb gözdən itirdi.

Yolun hər iki tərəfində yumşaq saqqala bənzəyən palıdı rəngli küləş tarlaları səpələnmişdi, bəzi yerlərdə şumlanmış sahələr qaralırdı. Hərdən bir yaşıl rəngli qış tərəvəzləri əkilmiş bostanlar gözə çarpırdı.

Üzəri samanla örtülmüş kənd evlərinin arasından tərsinə çevrilmiş süpürgəyə bənzər lüt ağaclar görünürdü. Bu ağacların arxasından dağlar görünürdü, onların üstünü buludların kölgələri ləkələr şəklində örtmüşdü. Solda, qışın solğun mənzərəsini rəngləndirən şintoist məbədin qapıları qızarırdı.

Xəstə ayağımı atamdan qalan saralmış yun əsgər adyalına büküb, belimə pambıq şal dolayaraq, səhər açılandan pəncərədə oturub uzağa baxırdım. Şəhərdən kəndə bir yol gəlirdi və kəndimizə gələcək olan artistlər də o yolla gəlməli idilər. Onların gəlişini heç cür qaçırmaq istəmirdim.

Sehrbazların kəndimizə gələcəyi haqqında beş gün əvvəl anamdan eşitmişdim. O, təmir üçün götürdüyü əşyaları sahiblərinə qaytarmaqçün kəndə getmişdi. Qayıdanda isə kənddəki bütün teleqram dirəklərinə "Sehrbazların böyük truppası"nın gəlişi haqqında elanlar yazıldığını söyləmişdi. Qastrol səfərinin vaxtı çox yaxşı idi - kəndlilər məhsullarını yığıb, qış tədarüklərini bitirmişdilər - artistlərin kəndbəkənd gəzməsi uçün əsl məqam idi.

Mən heç vaxt sirkdə olmamışdım, tamaşalara baxmaq arzusunda idim, lakin anlayırdım ki, bu heç vaxt mümkün ola bilməz. Axı mən yeriyə bilmirəm. Anam məni tamaşalara aparmaq üçün hər həftə xəstəxanaya apardığı kimi belində daşımalı olacaqdı. Hər dəfə də bizi yad bir insan görəndə mən yenə utanmalı, içimdə vicdan əzabı çəkməli idim. Yaşıma görə artıq üçüncü sinifdə oxumalı idim. Kənddə analar ancaq balaca uşaqları bellərində gəzdirirdilər. Çox istəyirdim tamaşaya baxım, amma bunun mümkünsüzlüyünü də anlayırdım.

Pəncərədən baxarkən "Sehrbazların böyük truppası"nın gəlişini təsəvvür eləməyə çalışırdım. Yəqin piyada gəzən orkestrin ifa etdiyi şən musiqi altında atlara bağlanmış arabalarla gələcəkdilər. Sehrbazlar fokuslarında cəld və iti hərəkətlər eləyirlər, məncə onlara öküz arabasında gəlmək heç cür yaraşmaz. Görəsən, hansı fokusları göstərəcəklər? Sehrli çubuğun bir hərəkəti və budur, gözəl bir qız iti dişləri görünən pələngə çevrilir! Bu fokus haqda mən kitabda oxumuşdum. Bəlkə onlar tamaşaçıları Şirniyyat diyarına səyahətə apararlar. Orda da kim hansı şirniyyatdan nə qədər istəsə yeyə bilər. Truppanın gəlişinə vaxt azaldıqca mənim fantaziyalarım daha canlanır və sehrbazların inanılmaz imkanlarının olmasına daha çox inanırdım. Mən özümü sağlam təsəvvür eləyirdim - dostlarımla kəndin yollarında qaçıram, dağlara dırmanırıq, çayda üzürük, məktəbdə lövhənin qarşısında dərs danışıram... Rəhmətə gedən atam dirilir... Hə... kaş bunlar mümkün ola biləydi...

Tamaşaya gedə bilməyəcəyim fikri ilə barışsam da, sehrbaz arabalarının yolun başında görünməsi təsəvvürü ürəyimi dondururdu. Lakin yol isə əvvəlki kimi boş idi.

– Günorta oldu, görəsən bunlar niyə gecikir? – narazı halda tikiş maşınında tikiş tikən anamdan soruşdum. Axır zamanlar anam tamam arıqlamışdı, üzündə bir damcı qan qalmamışdı.

Yerli kəndlilərin paltarlarını yamayan anam gözünü tikişdən ayırmadan məni sakitləşdirmə-

yə çalışdı:

– Bir azdan gələrlər – ayağını tikiş maşınının pedalına basdı. Otağın sakit boşluğunda tikiş maşınının taqqıltısı daha kəskin və bərk səslənirdi.

Biz bu kəndə köçüb gələnlərdən idik, atamız vəfat etmişdi, anam, mən, balaca bacım və dörd yaşlı qardaşım üzəri dəmir parçası ilə örtülmüş balaca bir daxmada məskunlaşmışdıq. Qışda evimiz qaranlıq və soyuq olurdu. Qapının, pəncərənin deşiklərindən evə soyuq girirdi. Anam deşikləri kağızla tuturdu. Həmin gün bacım və qardaşım harasa yox olmuşdular, bəlkə də qonşuda idilər.

– Oğlum, qrelkanı dəyişdirim? – ayağını pedaldan götürərək anam soruşdu.

Mən qrelkanı ayaq barmaqlarımla yoxlayıb, başımı yellədim. Pəncərədən baxaraq xəyallara elə dalmışdım ki, ayağımın altındakı qrelka yadımdan çıxmışdı. İndi onun soyuduğunu, ayağımda ağrının başlandığını hiss elədim.

Əlbəttə ki, ayağım qrelkanın soyuğundan ağrımırdı, ayağım soyuq olanda həmişə ağrıyırdı. Qışın gəlməsi ilə ağrılarım daha da artırdı. Soyuqlar düşən kimi havada uçan sığırçın dəstələri bulud kimi şaxtadan ağarmış tarlaların üstündə uçuşur, mənim isə ayağımdakı küt ağrı günü-gündən güclənirdi. Qan dövranının pozulması səbəbindən, ayağımın biri qrelka qoymağımdan asılı olmayaraq, həmişə soyuq olurdu. Soyuq gecələrdə ayağım dözülməz ağrı verir və məcbur olub anamı yuxudan oyadırdım. O qrelkanı dəyişir, sonra soyuq ayağımı qayğı ilə sığallayırdı. Onu yuxu tutur, başı aşağı əyilir, əlləri yavaş-yavaş hərəkətsizləşirdi. Bu zaman mən onu çağırıb oyadır, o ayılaraq yenə ayağımı sürtməyə başlayırdı.

– Ana, doğrudan onlar gələcəklər? – qrelkanı dəyişən anamdan hövsələsizcə soruşdum.

– Gələcəklər, gələcəklər. Belə həyəcanlanmaq və əsəbiləşmək lazım deyil.

Anam başını qaldırıb pəncərədən baxdı, ayağımı qrelkanın üstündə rahatladı və yenidən tikiş maşınının arxasına keçdi. Mən əsəbiləşmirdim, sadəcə, gözləməkdən bezmişdim. Bir qədər dikəlib, yenidən pəncərədən baxmağa başladım.

Mən bütün günü pəncərədən bayırda baş verənlərə baxmağa adət eləmişdim. Düzdür, kənddə xüsusən qışda maraqlı bir hadisə olmur, ona görə də mənzərə darıxdırıcı gəlir adama. Küçədə hər hansı hərəkət olanda çox xoşuma gəlir. İstər küçədə palçıq içində qaçan uşaqlar olsun, istərsə də bir-birinə bağlanmış öküzlərin arxası ilə gedən, soyuqdan gözlərinədək bürünmüş kəndlilər... Mən gözdən itənədək onların arxasınca baxıram. Hətta uzunquyruqlu sığırçınlar, həyətimizə çin bambukunun dənələrini yemək üçün bərk səslə bir-birini çağıran çöl ördəkləri belə məni əyləndirirdi. Günəşdə qızışan mozalan topalarının havada dalğalanmasına fasiləsizcə baxa bilərdim. Küçədə hansısa beli əyilmiş qocanın peyda olmasına, çomağına söykənərək yolun kənarı ilə asta-asta hərəkət etməsinə baxıb düşünürəm: nə olsun yavaş hərəkət edir, beli əyilib, yeriyən axı onun ayaqlarıdır...

– Ana, anacan! Gəldilər! – deyərək, bərkdən qışqırdım və alnımı şüşəyə yapışdırdım. Uzaqda üstü örtülü at arabaları görünürdü. Nəhayət! Mən o dəqiqə anladım ki, bu sehrbazların arabalarıdır. Kənddə öküz arabalarını görmək adi hal idi, at arabaları isə tək-tük hallarda olurdu. Üstəlik, üstü örtülü at arabası nadir hadisə idi.

Araba yaxınlaşdıqca təəccübüm daha da çoxaldı - araba gözlədiyim kimi bəzəkli və əlvan deyildi. Açıq palıdı rəngli arabanın yuxarısı qara ləkələrlə örtülmüş, arxasındakı brezent örtük isə cırılaraq, sallaq vəziyyətdə qalmışdı. Yan örtükləri sürtülmüş və süzülmüşdü. Onların üzərində güclə oxunacaq dərəcədə iki böyük heroqlif əks olunmuşdu – "böyük" və "truppa". Arabanın təkərləri yoldakı çalalara düşdüyündən araba gah sola, gah da sağa əyilirdi. Araba əyildikcə dazbaş arabaçı atların yüyənini gah buraxıb, gah dartırdı. Onun başı açıq idi, nə papağı vardı, nə də örtüyü. Şəhərdən gələn yol arabanı dağa qaldırırdı və buna görə də hündürlüyə qalxan atlar çox güman yorğun idilər. Arabaçı atların yüyənini dartırdı. Nalların altından qalxan qum buludları əsən küləklə havada sovrulurdu.

Mən elə bilirdim ki, şəhərdən bir neçə at arabası gələcək. Amma gözlədiyimin əksi oldu - vur-tut bir araba, həm də sınıq-salxaq araba!

Hə... "Böyük sehrbaz truppası" cəmi bir arabada? Heç mahnı səsi də eşidilmir! Mənim gözləntilərim özünü doğrultmamışdı və tamaşaya olan bütün marağım itmişdi.

Araba kəndin ortasına yetişəndə kənd uşaqları onu görüb sevinclə salamlayır, arabanın arxasınca qaçırdılar. Arabadan bir kişi başını çıxardaraq onları salamladı. Uşaqlar səs-küylə onun salamına cavab verdilər. Birdən məndə də arabanın arxasınca qaçmaq istəyi yarandı.

Fikirləşirdim ki, bu araba çox yollar gəzib, çox kəndlər görüb. Amma əgər afişalarda "Sehrbazların böyük truppası" yazılıbsa, demək, onların göstərəcəyi proqram da maraqlı olmalıdır.

Arxasınca uşaqlar qaçan, sağa-sola əyilən araba dağın aşağı tərəfinə səmt götürərək, gözdən itdi. O hələ məktəb tərəfə gedib, çayın üstündəki taxta körpünü keçməli idi. Araba gözdən itən kimi balaca yol boşaldı, pəncərəmdən görünən mənzərə yenə darıxdırıcı və maraqsız oldu.

Qapı qəfildən açıldı və təngənəfəs halda bizim süləng uşaqlarımız evə girdilər.

– Yığışın! Tez! Tez!

– Tələsməyin, axşam düşmədən başlamaz – anam əlini tikişindən ayırmadan onları sakitləşdirdi.

– Qonşu dedi ki, əgər tez getməsək, bizə yaxşı yerlər düşməyəcək– bacım etiraz edərək söylədi.

"Buna görə belə təngnəfəs qaçıblar" deyə düşündüm.

– Axı tamaşaya bütün kənd yığışacaq, hamıya yer çatmaya bilər! – anama qulaq asmadan bacım təkrar edirdi.

–Biz gedənə hər şey qurtara bilər! – balaca qardaşım külək qızartmış yanaqlarını sallayıb dedi.

–Uşaqlar, bəlkə qonşudan xahiş eləyim sizi özü ilə aparsın? – anam tikiş maşınını saxlayıb, əlini balacaların çiyninə qoyaraq soruşdu.

– Niyə? Niyə biz qonşu ilə getməliyik?! – ikisi də bir səslə incik halda soruşdular.

Mən dönüb boşalmış küçəyə baxdım. Anamın nə haqda düşündüyünü bilirdim.

– Böyük qardaşınız tək darıxacaq. Mənim də işim tökülüb qalıb...

– Yox! Biz sənlə getmək istəyirik! – qardaşım tələb edirdi.

– Mən də sənlə getmək istəyirəm. Sabah tikərsən paltarları. Qardaşımı isə həmişəki kimi belində apara bilərsən – bacım bərk səslə israr eləyirdi.

– Bezdirdiz! Əgər dözə bilmirsinizsə, üçünüz gedin! – Onların səsini batırmaq üçün deyindim. Hamısı mən tərəfə çevrildi.

– Siz gedin! Evə mən baxaram – onlara hirsli nəzərlərlə baxıb, yenidən üzümü pəncərəyə çevirdim.

Günəş batmağa doğru gedirdi. Teleqraf dirəklərinin kölgələri bir sıraya düzülərək, yolun ortasına kimi uzanmışdı. Onlar yol boyu uzanıb tarlaya çatanda, günəş dağların arxasına keçəcəkdi.

– Özünüzü yaxşı aparın, mehriban olun. Qonşuyla gedin – anam sakitcə dedi.

– Ana, niyə qardaşım o dəqiqə qışqırmağa başlayır? Sən həmişə bizi aldadırsan, qardaşımın sözünə baxırsan.

Bu sözlərdən mən hiddətləndim.

– Ey! Nə qədər çərənləyirsən sən! Get burdan! – Gözümü pəncərədən ayırmadan qışqırdım. Nəfəsimdən pəncərə şüşəsi bir saniyəlik ağ buxarla örtülüb, yenidən şəffaflaşdı. Bacım hələ də deyinirdi. O başlayanda dayana bilmirdi.

– Çıxın bir az gəzin, – anam onlara dedi.

Bacımla qardaşım onun sözünə baxaraq, sakitcə küçəyə çıxdılar.

Otağa yenə sükut çökdü. Tikiş maşınının taqqıltısı ahənglə səslənməyə başladı. Mən üzümü pəncərədən çevirib, böyrü üstə uzandım, əllərimi birləşdirib başımın altına qoydum və gözlərimi

yumdum.

Düzünü desəm, tamaşaya getməyi çox istəyirdim. O, akt zalında baş tutacaqdı və deməli, mən məktəbi görəcəkdim. Axı mən heç bir dəfə də orda olmamışdım. Mənim dostlarım yoxdur. Məktəb haqqında ancaq bacımdan eşidirdim - o bu il birinci sinfə getmişdi. Onun danışdıqları həmişə heyrətlə dolu olardı. Amma anam məni belində aparsa, hamı gözünü mənə zilləyəcək, bəlkə də gülüşəcək, "nə balaca bəbədi" kimi sözlər deyəcəkdilər. Bu mənim üçün dəhşətdir. Səhər tezdən oyanmağıma baxmayaraq, məni anam pəncərəyə bir az gec çıxardırdı. Səhər tezdən pəncərəyə yaxınlaşırıram. Yaşıdlarımın hazırlaşıb məktəbə getməsinə baxmaq mənim üçün çox kədərli idi. Soyuq qış belə onlara kar eləmirdi, həmişə şən, gümrah olurdular, kolları əyərək aralarından yola çıxıb, topa şəkildə məktəbə gedirdilər. Bu zaman mən yatağımda uzanıb onların səsinə qulaq asırdım. Şəhər xəstəxanasına getmək üçün evdən həmişə lap erkən çıxırdıq. Küçədə adam olmurdu. Məni belinə aşıraraq anam əlindəki çubuğuna söykənib, ağzından isti buxar çıxararaq, cığırla asta-asta dəmir yolu keçən qəsəbə tərəfə düşürdü.

Bizim uduzduğumuz uzun və dəhşətli müharibədən üç il keçirdi, mənim xəstəliyim isə günügündən ağırlaşırdı. Həkimlər mənə çanaq-bud oynağının vərəmi diaqnozunu qoymuşdular və söyləmişdilər ki, mən xüsusi müalicə kursu keçməliyəm. Evdə isə heç müalicəvi korset almağa belə pul yox idi. Eləyə biləcəyimiz yeganə şey hər həftə dağdan şəhərə həkim müayinəsinə getmək və ondan dərman almaq idi.

Bir dəfə yayın əvvəlində - müharibənin bitdiyi il olardı - dağdan enən cığırda yıxılıb budumu yaraladım və bununla da ayağımın ağrıları başladı. Yəqin elə o vaxt mən atamdan vərəm tutmuşdum. Onun ağciyərləri cənub dənizlərində döyüşəndə pisləşmişdi və onu evə ezam etmişdilər. Atam qan öskürə - öskürə qayıtmışdı və 1945-ci ilin payızında kəndimizdə vəfat etmişdi.

Kənddə həkim yox idi və anam məlhəm tapmaq üçün məni belinə alıb şəhərə apardı. Ona demişdilər ki, mənim dərdimin çarəsini yalnız Tokio böyük xəstəxanasındakı həkimlər bilər. Bizim Tokiodakı evimiz müharibə zamanı yanmışdı, oraya getmək üçün pul tapmaq da çətin idi. Mən artıq yeriyə bilmirdim və bütün yayı hava cərəyanları oynayan qaranlıq daxmada can verən atamla bir yerdə keçirməli olmuşdum.

Görəsən, qəsəbə həkimi düz deyirdi - mənə amputasiya lazım idi? Bu fikir məni tamam müvazinətdən çıxarmışdı və mən anamdan hər gün tələb eləyirdim ki, o məni Tokiodakı xəstəxanaya aparsın. Cavabında isə o mənə günahkarcasına bir azda gözləməyimi xahiş eləyirdi. Axı pal-paltar yamamaqla pul qazanmaq o qədər də asan deyildi.

Bizim, demək olar ki, Tokiodan gələn paltarlarımız və əşyalarımız qalmamışdı - bütün bahalı əşyaları anam düyü və tərəvəzlə dəyişdirmişdi. Komodun boşalmasını mən rəflərin sürüşərkən çıxartdığı cırıltıdan hiss eləyirdim. Əvvəl o ağzına kimi kimono və ya obi ilə dolu olurdu və açılıb bağlananda səs çıxarmırdı.

... Mən gözümü açıb növbəti dəfə atamın qaranlıq divarda asılmış şəklinə baxmağa başladım. Şəkil şəhərin sumo birinciliyi yarışmasında, mən doğulan il çəkilmişdi. Atamın əynində yüksək səviyyəli döyüşçü forması var idi. Mən hələ də inana bilmirdim - belə cəngavər boyda bədən quruluşunda adam qan öskürərək ölə bilərmiş. Amma atam vəfat etmişdi və üstəlik, xəstəliyini mənə də keçirmişdi. Əgər o, qonşuların ataları kimi müharibədə itkin düşsəydi, biz də onlar kimi onun nə vaxtsa gələcəyinə ümid edə bilərdik. Belə isə ümid etməli bir şey yoxdur...

Alnımı pəncərənin şüşəsinə söykəyib, atamın cənazəsinin kəndlilərimizin çiynində aparılmasına tamaşa edirdim. Budur, onlar kəndin kənarındakı yolla gedib, pəncərəmdən görünən şiş təpəli dağa tərəf döndülər. Anam cənazənin arxasınca başını qaldırmadan gedirdi. Yasda az sayda insan vardı. Kremasiya başlandı. Dağın ayağından qalxan tüstü çox hündürə qalxıb, yoxa çıxırdı.

Qəfildən giriş qapısı döyülmədən açıldı. Başımı əllərimin üstündən qaldırıb, qapıya tərəf bax-

dım. Bayaqkı cütlük geri qayıtmışdı.

– Ana, biz bir şey fikirləşmişik! Qardaşımız da tamaşaya baxa biləcək! – Bacımın gözləri həyəcandan böyümüşdü – qulaq as bizə, biz onu velosipedin qoşquşunda aparacağıq. Onda dördümüz də gedə bilərik! – o, fəxrlə sözünü tamamladı.

– Qoşquda? – anam birdə soruşdu.

– Hə, ikitəkərli qoşquda. Biz artıq onu da tapmışıq – qardaşım əlinin üstü ilə burnunu silərək dedi.

– Tapmısınız? Hardan?

– Qonşudan xahiş elədik. Balaca döşəkcə də tapmışıq – bacım anama baxaraq, mənə yaxınlaşdı – Qaqaşım, sənə qoşquda çox rahat olacaq. Hamımız bir yerdə gedərik – bacım sözlərin sonluğunu yerli ləhcə ilə deməyə başladı.

İkitəkərli qoşqunu yaşlı qonşumuz kartof və düyü daşımaq üçün istifadə eləyirdi. Qoşqu qara rəngli boya ilə boyanmışdı və təzə görünüşü var idi. Məni də məhz o qoşquya mindirmək istəyirdilər.

– Mən sizin üçün düyü və ya kartof kisəsi deyiləm – deyə, mızıldandım.

– Sən axı utanırsan anam səni belində daşıyanda. Qoşquda getmək daha yaxşıdır. Biz səni aparırıq. Başqa nə istəyirsən?!

Bacım mənim fikirlərimi düz tapmışdı. Amma o bunları hirslə, yuxarıdan aşağı baxaraq dediyindən mən onun dedikləri ilə razılaşmaq istəmirdim. Üzümü pəncərəyə tutub susurdum.

– O həmişə tərslik eləyir! – bacım acıqla ayaqlarını yerə çırpdı.

– Getmirəm dedimsə, deməli getmirəm! – dedim.

Ayağım olmasaydı, bəlkə də onun ağzını yumdurmuşdum, indi isə mən ancaq acıqlı sözlərimlə onun cavabını verirdim. O, məktəbə gedəndən çox həyasızlaşmışdı. İndi də balaca gombul mənim sözümə baxmamağa başlayıb.

– Uşaqlar gedib sənin üçün qoşqu tapıblar, gəl gedək onlarla – anam məni yolumdan döndərməyə çalışdı.

Mən pis olmuşdum, adyalı başıma keçirdib, hərəkətsiz halda uzandım. Otağı cansıxıcı sakitlik bürüdü.

Dəhşətli dərəcədə tualetə getmək istəyirdim. Tısbağa kimi astaca başımı yorğanın altından çıxardım. Sağ gözümün küncü ilə trioya baxdım. Onların görünüşü məni dəhşətə gətirdi. Anam ortada dayanıb balacaların çiynini qucaqlamışdı. Onun sağ tərəfində hönkürüb ağlamağa hazır olan bacım dayanmışdı. Mən yenə başımı yavaşcadan yorğanın altına salıb, nəfəsimi saxladım.

– Gedin bir az həyətdə oynayın – anam uşaqlardan xahiş etdi. Onlar otaqdan çıxdılar. Mən güclə nəfəs alırdım. Qonşu otaqdan ayaq səsləri və daha sonra qapının çırpılması eşidildi, yəqin ikisi də bayıra çıxdılar. Mən yorğanı üstümdən atdım. Gözümün qabağına yanağından axan göz yaşlarını silən bacım gəldi və içim bir az yumşaldı.

Kəndin üzərinə qaranlıq çökürdü. Pəncərədən cığırla tamaşaya baxmağa axışan kəndli dəstələri görünürdü. Onlar əvvəl hissə-hissə eyni istiqamətdə gedərək, bir-birinə yaxınlaşıb böyük dəstə yaradaraq, məktəbə tərəf gedirdilər. Böyüklərin dəstələrinin yanında balaca uşaqlar qaçışırdılar. Kəndlilərin əlində dzübako (yemək üçün nəzərdə tutulmuş qutu – tərcüməçi) boxçaları və bambukdan hörülmüş zənbillər var idi. Zənbillərə yəqin ki, yemək və yerli istehsal olan sake butulkaları qoyulmuşdu.

Kənd əhalisi üçün əyləncə nadir hadisədir. Qonşumuzun dediyinə görə, müharibədən sonra ilk dəfə idi ki, kəndə sirk truppası gəlirdi. Kənddə başqa nə əyləncə ola bilər ki? Payız bayramı, keçirilən müxtəlif yarışlar, yaz mədəniyyət günləri... Bu günlərdə evlərdə dadlı yeməklər bişirilir. Tamaşaların başlanmasına bir neçə saat qalmış insanlar yerlərini tutmağa gəlirlər. Mən nə keçirilən idman

oyunlarını, nə də mədəniyyət günlərini görmüşdüm. Payız bayramlarında da gördüyüm yeganə mənzərə uzaq-uzaq tarlalar boyu aparılan kəcavə idi.

Məktəb tərəfə sevinərək gedən kəndli dəstələri mənin içimdə tamaşaya baxmaq həvəsini daha da alışdırırdı. Mən pəncərədən aralanıb, kürəyi üstə uzanaraq gözlərimi yumdum. Elə o dəqiqə gözümün qabağına qara sallaq plaşlı illüzionist gəldi.

– Qaqaşım! – həyətdən bacımın səsi eşidildi.

Mən pəncərəyə doğru dikəldim. Qəfil hərəkətdən sağ ayağımda küt ağrı əmələ gəldi. Üzümü turşudaraq pəncərədən baxdım. Həyətdə qara qoşquda qardaşımı daşıyırdılar. Anam qoşqunu qarşı tərəfdən dartırdı, bacım isə arxadan itələyirdi. O mənə əl yelləyib, əsl kəndli qızları kimi bir əli ilə qoşqunu itələyib, o biri əli ilə paltarının uclarını düzəldib, alnının tərini sildi. Qoşqunun sahibi bağımızın yanındakı çəpər qonşumuz idi. Bacım tərləməmişdi, sadəcə, canfəşanlıq etdiyini göstərmək istəyirdi, daha böyük görünməyə çalışırdı. Adyala bürünmüş qardaşım qoşquda oturub sevincək halda sağa-sola boylanırdı. Anam əyilərək, pilləkənin altından keçib aynabəndə qalxdı və evə girərək adyal və balaca döşəkcə götürdü. Onları qoşquya qoyaraq, mənim yanıma gəldi.

– Hər şey hazırdı! Gedək! – deyə, məni çağırıb, əllərini mənə uzatdı. Səhərlər xəstəxanaya gedəndə olduğu kimi, ona tərəf çevrilməyə başladım. Anamın dodaqları qaçdı və baxışları mülayimləşdi. O mənim qoluma girərək, ayaq üstə qoydu.

– Bayırda hava avazıyır, qalın geyinmək lazımdı.

O məni xəstəxanaya gedərkən əyninə geyindiyi pambıq arxalığa bürüdü. Balaca, xırda sarı-qırmızı xrizantemalarla bəzənmiş qadın arxalığına nifrət eləyirdim. Adamı belə arxalığa bürüyəndə, qızlarla asanlıqla səhv salmaq olar. Bu səfər dözdüm, anam mənlə istədiyi kimi rəftar edə bilərdi.

O məni qoşquya qədər gətirdi. Qoşquya oturarkən qolum kənardakı iti dəmirə dəyib, yüngülvari cızıldı. Anam ayaqlarımı adyala bürüyüb, çiynimə daha bir pambıq arxalıq atdı. Mən çalışırdım bacım tərəfə baxmayım, onun baxışlarına məhəl qoymadan, susmağa davam edirdim.

– İtələyirəm! Hazırsan, ana? – arxamdan bacım dillərdi.

– Hazıram, itələ.

Qardaşım "mən də kömək edəcəyəm" deyib, şaxta vurmuş əlləri ilə qoşqunu itələməyə başladı. Maili həyətlə qoşqunu itələyib, qəsəbə yoluna çıxartdılar. Yolun bu hissəsində qardaşım onu da qoşquya mindirməmizi tələb eləməyə başladı.

– Sənin ayağın ağrımır, sən özün də gedə bilərsən! – Bacım əmrvarı söylədi. Lakin qardaşım ona qulaq asmayaraq, özünü qoşqunun içinə saldı və mən özümü daha rahat hiss eləməyə başladım.

Yol çala-çuxurlu idi, qoşqu silkələnirdi, ayağım ağrıyıdı. Lakin ayağımın ağrısına məhəl qoymayaraq dözürdüm. Səmanın qərb hissəsində üfüqlər qızarırdı. Hər şey mənim pəncərəmdən göründüyündən daha da möhtəşəm idi. Qış günlərinin qürubuna baxmağa nifrət edirəm. Bu, günün sona yetməsinə və soyuq gecənin başlamasına işarə idi.

Arxamda uşaq səsləri eşidəndə gözlərimi yumurdum. Onlar qaçaraq qoşqu ilə bərabər addımlayırdılar və hamısı sözləşmiş kimi birdən susub mənə baxırdılar. Təbii ki, məni başdan - ayağa süzürdülər. Uşaqların yanımdan ötüb keçdiyini təsəvvür edərək gözlərimi açırdım və kiminsə hələ də gözünü mənə zilləryək baxdığını görüb, yenidən gözümü yumurdum. Anam isə mehribanlıqla hamı ilə salamlaşırdı.

Daş hasarları keçib, məktəbin həyətinə daxil olduq. Budur, mən məktəbdəyəm! Mən daha gözlərimi yuma bilmirdim. Giriş qapılarının qarşısında taxtadan tikilmiş böyük məktəb binası dayanırdı. Həyətin aşağısında turnik, yelləncək və oynamaq üçün qumluq var idi. Bütün bunlar haqqında bacım mənə danışmışdı. Ətrafda hər yerdə uşaqlar oynayırdı. Mən ətrafda olan hər şeyə baxmaq istəyirdim, lakin mümkün olmurdu. İnsanlar qoşqunu əhatə etmişdilər. Mənə diqqətlə baxaraq, qoşqunun yanı ilə addımlayırdılar.

Gərək heç bura gəlməzdim! Bura mənim kimi xəstələrin yeri deyil! Mən üzümə soyuqqanlı ifadə vermək istəyirdim, lakin özümü məcbur edə bilmirdim.

Akt zalının girəcəyinə yaxınlaşdıqda, hamı anamın məni qoşqudan endirməsinə tamaşa edirdi. İnsanlar sıx divar kimi sıraya düzülmüşdülər. Mən sıxılaraq, anamın çiyinlərinə sığınmışdım. O mənə yalnız bunları pıçıldadı: "Həmişəki kimi möhkəm dayan". Mən utancaq meymun balası kimi üzümü onun sinəsinə sıxdım.

Hündür akt zalının tavanından abajursuz lampalar asılmışdı, döşəməyə isə nazik dəmir listləri sərilmişdi. Düzbucaq şəklində olan peçin içində kömür qızarırdı. Musiqi səsi bütün zala yayılmışdı, zalda ümumi canlanma hiss olunurdu. Uşaqlar geniş zalda o yan, bu yana qaçışırdılar. Qoca kəndlilər mırıq dişlərini göstərə-göstərə gülümsəyir, cavan qızlarla zarafatlaşırdılar. Gözləməyə səbri çatmayanlar boxçalarındakı yeməkləri çıxardıb, şüşələrə sake süzürdülər.

Anam məni birinci sıraya qədər daşıyıb, bizdən əvvəl gələnlərdən üzr istəyərək, məni birinci sıranın qarşısında döşəmədə otuzdurdu.

– Oğlunun sağlamlığı necədir?– yanımızda oturan qoca qadın soruşdu.

– Babat, soyuqlar düşəndə ayağındakı ağrılar çoxalıb, əziyyət verir – deyərək, anam qadına maraqlandığı üçün təşəkkür elədi.

Qadın təəssüflə başını yelləyib, yavaşca söylədi:

– Xəstəliklə barışmaq olur, ölümə qurban gedənləri isə qaytarmaq mümkün deyil...

Anam bir dəfə bu qadın haqqında bizə danışmışdı. Onun kiçik oğlu hərbi gəmidə xidmət eləyirdi və bir gün düşmənlər gəmini batırıb, içindəkilərin hamısını öldürmüşdülər. Mən onu əlində balaca gül dəstəsi tutaraq qəbiristanlıq tərəfə getdiyini pəncərədən tez tez görürdüm. Yaşlı qadın hərəmizə bir dənə soyutma kartof verdi. Tamaşanın başlamasını gözləyə-gözləyə kartofu yeməyə başladım.

Nəyahət, pərdələr aralanmağa başlandı. Səhnənin tən ortasında başdan - ayağa qara geyinmiş illüzionist dayanmışdı. Başındakı parlaq silindr papağı düzəldərək, əllərini uzun plaşının altından çıxarıb, tamaşaçıları salamlamağa başladı.

– Tamaşamıza başlayırıq!– yüksəkdən elan edərək, çiynindəki mantiyasını havada yellədi. Mantiyanın altında qırmızı atlas astar göründü. Birdən nə olsa yaxşıdır? Sehrbazın əlində iki uzun qanadlı ağ göyərçin peyda oldu. Bütün zal onu alqışladı. Təəccübümü gizlətmədən əl çalmağa başladım.

Səhnənin arxasından gənc bir qadın peyda oldu. Əl-üz yuyan ləyənə bənzəyən bir ləyənin hər iki tərəfini əli ilə tamaşaçılara göstərərək, onu səhnədəki xüsusi masanın üzərinə qoydu. Sonra nümayişkaranə şəkildə əlindəki kibriti yandırıb, ləyənin içinə atdı. Ləyənin içindən alov dilimləri görünməyə başlandı.

– Oy!– zaldan təəccüblənmiş qadın səsi eşidildi.

Budur, sehrli alov! Hər şey bu qədər sadədir, üfürmək üçün bambuk çubuğuna da ehtiyac qalmadı.

Sehrbaz tələsmədən masaya yaxınlaşdı, bir qədər əyilib, yavaşcadan dodaqaltı nəsə oxudu və vedrəyə bənzər bir qabla yanan alovun üzərini örtdü. Alov söndü.

– Ux, – deyib yanımızdakı qadın köks ötürdü.

– İndi isə baxaq bizim sehrli alovumuz nəyə çevrilib – sehrbaz zarafatçıl tərzdə söylədi və qabı ləyənin üstündən qaldırdı. Ləyənin içində ağ toyuq oturmuşdu.

– Əla! İndi bizim yumurtlayan toyuğumuz oldu.

Toyuq ayağının birini qaldırdı və hamımız ləyənin içinə nəyinsə düşdüyünü eşitdik. Toyuq iki dənə yumurta yumurtlamışdı. Bu əsl möcüzə idi! Bir göz qırpımında iki yumurta...

A... Bu nədir? Toyuğun boğazının altından qırmızı ət sallanmışdı. Bu ki xoruzdur! Harda gö-

rünüb ki, xoruz yumurtlasın? Alqışların əvəzinə zalı gülüşmə səsi bürüdü. Sehrbaz ciddi görkəmdə dayanmışdı. O heç nəyə fikir vermirdi. Gülməkdən hətta mənim yan tərəfim sancmağa başladı. Öz pərtliyini hiss eləyən sehrbaz utanaraq öskürdü və tamaşaçılardan üzr istədi.

– Günah mənim sehrli çubuğumdadır. Nəm tutub, ona görə də xoruzla toyuğu səhv salıb.

Zalı gülüş dalğası bürüdü. Razı halda maestro xoruzu köməkçisinə verib, ləyəndən yumurtaları götürdü.

– Davam edirik! Xahiş edirəm hamınız bu qeyri-adı yumurtaya baxasınız!– O, böyük və baş barmağı ilə bir yumurtanı götürərək, tamaşaçılara göstərməyə başladı. Mənə elə gəldi ki, bu yumurta qonşumuzun toyuğunun yumurtladığı yumurtalardan heç nə ilə fərqlənmirdi. Lakin eşidəndə ki, bunlar qeyri-adi yumurtalardır, onların fərqli olduğuna özümü inandırdım. İllüzionist yumurtanı qaytarıb yenidən ləyənin içinə qoydu və üstünü qapaqla örtdü. Əlindəki çubuğunu havada fırladıb, iki dəfə qapağa vurdu. Tamaşaçılar nəfəslərini dərib diqqətlə səhnəyə baxırdılar. Bir qədər gözləyib, maestro qapağı təntənəli şəkildə qaldırdı.

Bir ləyən pul! Bir dolu ləyən pul! Doğrudan da, o, adi yumurta deyildi, qızıl yumurta idi! Köməkçi xanım əlini ləyənin içinə salaraq, ordan kağız və dəmir pulları qaldırıb tamaşacılara göstərirdi. Sehrbaz başındakı silindr papağı çıxardıb, ləyənin içindəki pulları saya - saya papağının içinə yığırdı: bir, iki, üç...

Kaş bizim də o qədər pulumuz olardı! Biz Tokiodakı böyük xəstəxanaya gedib, mənim xəstə ayağımı müalicə eləyərdik. Bunları arzulayaraq, çönüb anama baxdım. Təəccübdən anam ağzını açıb, sehrbazın əlindəki pul topasına baxırdı. Və nəhayət, sonuncu pul əskinasını yuxarı qaldırıb, əlindən buraxdı. Kağız pul havada bir necə dəfə fırlanaraq yerə düşdü və bütün zal alqışlamağa başladı.

– İndi isə biz hipnozun gücünü nümayiş eləyəcəyik – sehrbaz çubuğunu qoltuğuna qoyaraq, zala müraciət etdi. Zal həyəcanlandı. O, baxışları ilə sıralarda əyləşən insanları süzürdü. Zaldakı səslər azalmağa başladı. Onun gözləri bir az da diqqətlə baxmağa başladı və zalda tam sakitlik oldu.

– Sən, səhnəyə gəl zəhmət olmasa – əlindəki sehrli cubuq düz mənə tuşlanmışdı – bəli, sən, sən! Yaxınlaş bura zəhmət olmasa.– sehrbaz məni səhnəyə dəvət edirdi. Zalda alqışlar səsləndi, fit çalındı. Nə edəcəyimi bilmirdim, anama tərəf çevrildim, gözlərimlə ondan kömək diləyirdim.

– Bağışlayın, amma oğlum yeriyə bilmir... Yaxşı olar ki, başqa adamı çağırasız – deyib, anam üzr istədi.

Mən rahatlanıb başımı qaldırdım. Bu anda sehrbaz iti addımlarla yaxınlaşaraq, məni qucağına götürdü. Havada dalğalanan plaşına bürüyərək, səhnəyə qaldırdı. Stula əyləşdirib, soruşdu:

– Sənin adın nədir?

Mən sualı cavablandırdım və o, növbəti sual verdi:

– Necənci sinifdə oxuyursan?

Məni ağlamaq tutmuşdu. Kaş ki evdə oturub, evə qarovul çəkərdim. Zal susaraq mənim cavabımı gözləyirdi. Durub səhnədən qaçmağım gəlirdi. Dodaqlarımı dişləyərək, başımı aşağı saldım.

– Əla, mən hər şeyi anladım – sehrbaz, deyəsən, hər şeyi başa düşmüşdü – yəqin sən məktəbə hamıdan qabaq gedirsən.

Zaldan gülüş səsləri eşidildi. Mən rahatlıqla nəfəsimi dərdim. Sehrbaz mənə fövqəlbəşər insan təsiri bağışlayırdı. Əlini mənim çiyinlərimə qoyaraq elan elədi:

– İndi, əziz tamaşaçılar, siz hipnoz seansının şahidi olacaqsınız. Hipnoz vasitəsi ilə bu oğlan bizə ən əlçatmaz arzusu haqqında danışacaqdır! Xahiş edirəm, sakitliyə riayət edəsiniz.

Zal sakitləşəndən sonra sehrbaz mənə diqqətlə baxaraq, öz sehrli çubuğunu üzümə yaxınlaşdırıb, sehrli sözlərini pıçıldamağa başladı:

– Hipnoz eləyirəm, hipnoz eləyirəm... yuxum gəlir... yu-xu-m gə-li-r...

Mən boynumun arxasının ağırlaşmasını və göz qapaqlarımın keyiməsini hiss elədim.

"Hipnozun tasirinə düşməməliyəm" cümləsini düşünməyi belə çatdırmamış ətrafımdakı bütün səslərin yoxa çıxdığını hiss elədim.

Sağ əlimdə ağrını hiss eləyib ayıldım. Sehrbazın çubuğu mənim çiynimə dəyirdi. Hipnoz bitmişdi. Tamaşaçılar alqışlayırdılar. Sehrbaz alqışlara cavab olaraq, tamaşaçıların qarşısında baş əydi, məni qucağına alaraq, oturduğum yerimə qoydu.

Mən hipnozdan nə qədər vaxt keçdiyini, nə baş verdiyini, nə danışdığımı tamamilə unutmuşdum. Başım hələ də dumanlı idi. Yəqin ki, hipnozdan tam ayılmamışdım.

Səhnədə sehrbazın köməkçisi növbəti seans üçün hazırlıq görürdü, başı keçəl qırxılmış kişi isə ona köməklik edirdi.

Tamaşadan sonra məni yenə də qoşquya oturtdular. Külək sakitləşmişdi. Yarpaqlarını tökmüş qinkqo ağaclarının budaqları üstündən ay görünürdü. Ay məktəbin turnik və yelləncək olan hissəsini aydınlatmışdı.

Tamaşaçılar akt zalını boşaldırdılar. Məktəbin həyətində onlarla bərabər kölgələri də yeriyirdi. Daş hasarı keçəndən sonra kəndlilər tarladan keçən cığırlarla kəndə qayıdırdılar.

Hər dəfə bizi hansısa kəndlimiz ötüb keçəndə, çönüb xeyirli axşamlar diləyirdi. Anam ayaq saxlayıb baş əyərək, təşəkkür edirdi. Bəziləri mənimlə söhbətləşməyə can atırdılar: tamaşanın necə keçdiyini, xoşuma gəldiyini soruşurdular. Qayğı ilə söyləyirdilər:

– Çalış soyuqlamayasan!

Cavab olaraq mən başımı yelləyirdim. Sonra pambıq arxalığı başıma keçirdim, sevmirdim mənə çönüb bir neçə dəfə baxanları. Öz özümə düşünürdüm: tamaşanın keçirilməsi çox yaxşı oldu. Hamının xoşuna gəldi, yəqin ona görə hamı bizimlə mehribancasına salamlaşır.

Tamaşa, doğrudan da, uğurlu keçmişdi. Alovdan xoruzun əmələ gəlməsi, yumurtaların pula çevrilməsi səhnəsini bir neçə dəfə xatırlayırdım.

Məktəb hasarlarının arxasında bir neçə ev dayanmışdı. O evlərin yanından keçən kimi kəndin bütün mənzərəsi qarşımızda açıldı. Kənd qaranlığa bürünərək, gecə yuxusunda mürgüləyirdi. Kəndin ətrafı ay işığında parıldayan dağlarla üzük kimi əhatə olunmuşdu. Ay işığında yoldakı çınqılları da görmək olurdu. Qarşıda taxta körpünün məhəccərlərinin sırası bilinirdi. Körpünün altından çay axırdı.

Çala-çuxurları yan keçməyə çalışarkən, anam və bacım qoşqunu tələsmədən itələyirdilər. Anamın ayağının altında şəkildən şəklə düşən kölgəsinə baxaraq, məktəbdən bəri arxamızca gələn, aramızda on metr məsafə saxlayan oğlanlardan fikrimi ayıra bilmirdim. Onların arasında olan söhbətin bəzi sözləri qulağıma çatırdı:

– Sən keç qabağa!

– Yox, sən keç!

Mən bir neçə dəfə çönüb, onlara baxdım. Onlar yaşca mənlə eyni olardılar və dördünün də saçları dibindən qırxılmışdı. Onların hər hansı biri ilə göz - gözə gəldikdə, qarşı tərəf utancaqcasına başını aşağı salırdı.

Mən onların bir xata çıxaracağından qorxub büzüşmüşdüm.

Körpüyə çıxa-çıxda, çayın şırıltısı eşidilməyə başlayan yerdə onlar bizə yaxınlaşıb, qoşqunu dövrəyə aldılar. Anam ayağını saxladı. Mən yanımda oturan qardaşımın əlini sıxaraq, gərgin halda dikəldim.

– Xala, verin bir az biz itələyək qoşqunu – oğlanlardan biri söylədi.

Anam köməkdən imtina eləyib, təşəkkür etdi.

İsrar edərək, "icazə verin, icazə verin" deyərək, qoşqunu anamın əlindən alıb sevinclə itələ-

məyə başladılar. Qoşqu asanlıqla qarşıya getməyə başladı.

Qardaşım sevindi. Bacım da yanımızda qacaraq, qoşquya əyləşdi.

Oğlanlar bizi evə qədər aparacaqlarını söylədilər.

Görəsən, niyə onlar bizi ötürməyə qərar vermişdilər? Mən bütün bu olanları yuxudamı görürəm?

– Səni hipnoz eləyəndə ağrıdırdı?– onlardan biri məndən soruşdu.

– Bir qram da ağrıtmadı – deyərək, cavab verdim.

– Mən elə bildim sən öləcəksən.

– Mən də elə bildim. Qəfildən gözlərin yumuldu.

– Mən hətta bir az qorxdum – uşaqlar öz fikirlərini bölüşürdülər. Onların dördü də üçüncü sinifdə oxuyurdu. Onların adları: Qenta, Tsune, Seta və Mineo idi.

– Bəs doğrudan sənin yadında heç nə qalmayıb? Bəlkə hipnoz hələ də davam eləyir və bizə də keçə bilər? – qabaqda gedən Qenta çönərək hamımıza baxdı. Hamı bir nəfəsə gülməyə başladı.

Yollar donmuşdu və təkərlərin altından bərkimiş palçıq qırıqlarının səsi eşidilirdi. Torpağın üstünü duman örtmüşdü, lakin mən nədənsə soyuq hiss eləmirdim. Biz yoldan ev tərəfə döndük və qoşqu qapımızın ağzında dayandı. Anam dayanıb, bizim yol yoldaşlarımıza təşəkkür elədi.

– Əgər sənin ayağın ağrıyırsa, sabah mən sənlə oynamağa gələcəyəm – Qenta təklif elədi.

– Mən də gələcəyəm – Mineo ona qoşuldu.

Mən razılıq əlaməti olaraq başımı yellədim, boğazımı isə qəhər boğurdu.

– Al, bunu götür, bunu yoldan tapmışam. – Tsune cibindən çıxartdığı qozu mənə verdi.

Seta da şalvarının cibindən qoz çıxardıb, mənə uzatdı.

– Yaxşı, sağol!

– Sabahadək! – deyib, onlar ay işığının altında çığırla qaçmağa başladılar.

Qaçanların arxasınca aynabənddən baxan bacım sevinərək dedi:

– Qaqaşım, nə yaxşı ki, biz tamaşaya baxmağa getdik. İndi sənin də dostların olacaq.

Onların verdiyi qozları yastığımın yanına düzərək, onlardan gələn dağ iyini qoxulayır və heç cür yuxuya gedə bilmirdim.

Yəqin, Seta və Tsune onları məktəbin arxasında dağın dibində tapmışdılar. Yəqin ki, onlar ora dərslərdən əvvəl oynamağa gedirdilər. Qoz mövsümü çoxdan bitmişdi. Qozlar tökülmüş yarpaqların altında xeyli qalmışdılar, qabıqları qaralmış, payızda olduğu kimi parlaqlıqlarını itirmişdilər.

Üçü bir balaca aralanmışdı. Mən onları ayırıb, kənara qoydum. Səhər xahiş eləyəcəyəm ki, bağda, pəncərəmdən görünən bir yerdə onları əksinlər. Yazda dostlarımın verdiyi qozlar yaşıl zoğlar buraxacaq.

Mən anamdan sehrbazın sualına verdiyim cavabı öyrəndim. Sən demə, hipnoz altında "mənim ən böyük arzum - dostlarımın olmasıdır!" demişəm...

*Tərcümə:*
**Leyla Cahangirova**



# WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS

## DISNEY'S HOLLYWOOD STUDIOS

## WALT DISNEY WORLD RESORT

## LAKE BUENA VISTA, FL

Disney describes this park (est. 1989) as "the Hollywood that never was and always will be." Laid out much like a real-life motion picture studio, with a 154-acre network of streets and buildings and miniature replicas of famous landmarks, it showcases the golden age of film. But most kids make a beeline to Toy Story Midway Mania! at Pixar Place and Star Tours—The Adventures Continue.

**ANNUAL VISITORS: 10,110,000**






## UNIVERSAL'S ISLANDS OF ADVENTURE, ORLANDO, FL

Hogwarts fans went hog wild when Islands of Adventure opened the Wizarding World of Harry Potter in 2010, and the attendance numbers continue to reflect Harry's magic touch. Shops, restaurants (The Three Broomsticks), and rides are all branded with the boy wizard; nonbelievers can find rides themed with Marvel superheroes and other trademarked characters. The Jurassic Park River Adventure, for instance, is a hairy river-raft ride with a terrifying T. rex attack, set in a habitat for animatronic dinosaurs.




King Louis XIV did a pretty nice job redoing a place that started out as a mere hunting lodge and is now a UNESCO World Heritage Site. It's so nice, in fact, that people willingly trade a day in Paris cafés for the experience of wandering Versailles' hallways, like the gilded Hall of Mirrors—the best place to channel your inner Sun King.




# OCEAN PARK HONG KONG

**ANNUAL VISITORS: 7,475,000**

Sure, there are roller coasters, but this 40-acre theme park stands out for attractions that are more down to earth. There's Panda Village, where, despite the name, visitors come to see playful otters; Pacific Pier, where you can feed seals and sea lions; and the Sea Jelly Spectacular, where you can marvel at some 1,000 jellyfish, including many phosphorescent species. A mountain divides the park, which you can navigate by bus, train, even cable car. (It's a bus ride away from central Hong Kong.)

## ALKON CƏBRAYIL OĞLU ƏLİZADƏ

Xəzər Universitetinin ictimai iaşə üzrə müdiri Alkon Cəbrayıl oğlu Əlizadə 2017-ci il iyunun 20-də qəflətən vəfat etmişdir.

Alkon Əlizadə 1951-ci il martın 5-də Bakı şəhərində anadan olmuşdu. Əmək fəaliyyəti ərzində müxtəlif sahələrdə çalışan Alkon Əlizadə 2014-cü ilin sentyabr ayından Xəzər Universitetində işləyirdi. Ötən illər ərzində o özünü kollektivin məsuliyyətli, diqqətcil və qayğıkeş üzvü kimi tanıtmış, hamının rəğbətini qazanmışdı.

Allah rəhmət eləsin!

**Xəzər Universitetinin kollektivi**



# XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ

## BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

**Ünvan:**

**Bakı, Əcəmi Naxçıvani 9**
**Tel.: (+994 12) 563 59 40 /47 /48**
**Mob.: (+994 70) 844 08 88**

**Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi**
**Tel.: (+994 18) 642 30 97**
**Mob.: (+994 55) 669 96 33**

**E-mail: info@dunyaschool.az**
**http: // dunyaschool.az**

**XƏZƏR UNİVERSİTETİ**

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informatika müəllimliyi
* Fizika müəllimliyi

### 1 QRUP

### 2 QRUP

* Mühasibat uçotu və audit
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm və otelçilik
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi

### 3 QRUP

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya

### 5 QRUP

* Dizayn